# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

12 mart 2026-cı il, cümə axşamı
№ 046 (7113)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Avropa İttifaqı Şurasının Prezidenti Bakıda



## Sülhdən yaxşı heç nə ola bilməz

Bax səh. 2

### İlham Əliyev: Tərəfdaşlığın fəal mərhələsindəyik

### Antonio Koşta: Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir



## Zəngəzur dəhlizi (TRIPP): yeni əməkdaşlıq və təhlükəsizlik aləti...

Bax səh. 3

### Dövlət şirkətləri hesabat verdi

Bax səh. 4

### AŞPA-nın yolunu tutanlara cavab

Bax səh. 4

### Hindistanda siqh icmasına qarşı təzyiqlər artır

Bax səh. 5

### 10 il sonra dərc olunacaq parlament bəyanatları

Bax səh. 7




### Yaxın Şərqdə müharibə - dünya enerji sınağı ilə üz-üzə qalıb

Bax səh. 6



### Tehran şərtlərini açıqladı

Bax səh. 5

# Moskvadan zəng



Martın 11-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Vladimir Putin Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində göstərilən operativ köməyə, həmçinin ölkəsinin İrana göndərdiyi humanitar yardımın Azərbaycan ərazisindən keçməsinə yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı liderlər Yaxın Şərqdə hərbi əməliyyatların tezliklə dayandırılmasının və münaqişənin siyasi-diplomatik yollarla həllinin vacibliyini vurğulayıblar.

Dövlət başçıları ikitərəfli gündəliyin aktual məsələlərini müzakirə ediblər. Strateji tərəfdaşlıq və müttəfiqlik prinsiplərinə uyğun olaraq Azərbaycanla Rusiya arasında qarşılıqlı fəaliyyətin müxtəlif sahələrdə gələcək inkişafında qarşılıqlı niyyət təsdiqlənib.

# Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhandan

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycan ərazisinin İran ərazisindən pilotsuz uçuş aparatları ilə hədəfə alınması və bunun nəticəsində hava məkanınızın pozulması barədə xəbərləri narahatlıqla izlədik. Bu, beynəlxalq hüququn prinsiplərinin və dövlətlərin suverenliyinə hörmət qaydalarının açıq şəkildə pozulmasıdır.

Sudan Respublikasının rəhbərliyi, hökuməti və xalqı adından qardaş Azərbaycan Respublikası ilə tam həmrəyliyimizi ifadə edir, ölkənizin suverenliyini, təhlükəsizliyini və sabitliyini qorumaq üçün atdığınız bütün qanuni addımları dəstəklədiyimizi bildiririk.

Uca Allahdan Azərbaycan Respublikasını qorumasını, ona təhlükəsizlik və sabitlik bəxş etməsini diləyirik.

Zati-alinizə ən yüksək ehtiramımızı və hörmətimizi bildiririk.

**Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan**
**Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri**

# Avropa İttifaqı Şurasının Prezidenti Bakıda







**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə təkbətək görüşü olub.**

# Sülhdən yaxşı heç nə ola bilməz

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta mətbuata bəyanatlarla çıxış ediblər.
AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.

## İlham Əliyev: Tərəfdaşlığın fəal mərhələsindəyik

-Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən Avropa İttifaqı Şurasının Prezidentini salamlayıram. Cənab Prezident, Sizi qəbul etməkdən çox məmnunam. Ötən il iki dəfə görüşmüşük və çox yaxşı müzakirələrimiz olub. Yadınızdadırsa, mən Sizi Azərbaycana səfərə dəvət etdim. Dəvətimi qəbul etdiyinizə görə minnətdaram. Biz Sizin səfərinizə çox böyük önəm veririk. Əminəm ki, o, xüsusən də indiki dövrdə çox uğurla inkişaf edən ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm rol oyanacaq. Bizim çox fəal dialoqumuz var. Avropa Komissiyasının üzvləri ötən il və bu il dəfələrlə bizə səfər



ediblər. Beləliklə, biz müxtəlif səviyyələrdə tərəfdaşlığın fəal mərhələsindəyik. Mən bəzi iqtisadi göstəricilərə nəzər saldım və gördüm ki, bu ilin yanvarında ticari dövriyyəmizin 50 faizi Avropa İttifaqı ilə bağlı olub. Ötən il dövriyyə bir az aşağı olmuşdur, lakin o, həqiqətən göstərir ki, Avropa İttifaqı bizim üçün bir nömrəli ticari tərəfdaşdır. Əminəm ki, yeni layihələr və yeni investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq. Hazırda biz, həmçinin Avropada fəal şəkildə sərmayə yatırırıq. Ticari dövriyyəmiz birmənalı olaraq artacaq. Tərəfdaşlığımızın mühüm hissəsi hər zaman enerji əməkdaşlığı olub, var və birmənalı olaraq olacaq. Bu, xüsusən də 2022-ci ildə Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında sənədi Avropa Komissiyası ilə imzaladığımızdan sonra müşahidə olunur.

Həmin vaxtdan etibarən biz həm həcm, həm də ölkələrin sayı baxımından Avropa ölkələrinə qaz ixracımızı artırmışıq. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qazı qəbul edir və ölkələrin ümumi sayı 16-ya çatıb. Bu göstəriciyə görə biz dünyada boru kəməri ilə qazı təchiz edən bir nömrəli ölkəyik. On altı ölkə bu gün Azərbaycan qazını alır və beləliklə, bir çox ölkələrin enerji təhlükəsizliyində oynadığımız rol artır.

Bizim üçün Avropa bazarı artım potensialına malik ümumi qaz ixracımızın yarısını təşkil edir. Elə bu ayın əvvəlində, biz Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik toplantısını keçirdik və bu tədbirə Azərbaycan və Avropa Komissiyası ev sahibliyi edir. Orada öz nitqimdə mən auditoriyanı məlumatlandırdım ki, biz bu il qaz hasilatını artırmağı planlaşdırırıq. Biz qazı yeni yataqda hasil etməyə başlayacağıq. Bu gündən etibarən növbəti iki və ya üç il ərzində, - əgər hər şey cədvələ uyğun gedərsə, - bizim bugünkü həcmlə müqayisədə minimum 10 milyard kubmetr əlavə qazımız olacaq.

Enerji sahəsində əməkdaşlığımızın digər istiqaməti bərpaolunan enerji ilə bağlıdır ki, onun da böyük potensialı var. Biz külək, Günəş və su elektrik enerjisinə böyük sərmayələr yatırırıq. Planımız beş və ya altı il ərzində ixraca hazır olan 6-8 giqavatlıq bərpaolunan enerjiyə malik olmaqdır. Bir sözlə, hazırda biz Avropa tərəfdaşları ilə ötürülmə xətləri, dəniz dibi kabelləri, enerji infrastrukturunun digər fərqli hissələri üzərində çalışırıq.

Bu gün gəldiyiniz zaman hər ikimiz Bakıda çox günəşli havanı qeyd etdik. Bahar gəlir. Əslində, düşünürəm ki, bizim burada 300-dən çox günəşli günümüz olur və ola bilsin, küləkli günlər daha çoxdur. Təsəvvür edə bilərsiniz ki, külək və Günəş enerjisinin burada böyük potensialı var. Əlbəttə, biz daha sıx işləməyə çalışırıq, çünki Avropa qitəsinə daxil olmazdan əvvəl, siz bütün tranzit razılaşmaların icrası məqsədilə bir çox ölkələrlə işləməlisiniz. Təbii ki, xüsusi olaraq, Ermənistanla paraflanmış sülh sazişinə nail olduqdan sonra daşımalar ikitərəfli gündəliyimizin mühüm hissəsidir. Orta Dəhlizin genişlənməsi üçün yeni imkanların açılması, təbii ki, nikbinliyimizi artırır. Cənab Prezidentə söylədiyim kimi, biz cəmi yeddi aydır ki, sülh şəraitində yaşayırıq. Müstəqilliyimiz hələ 1991-ci ildə bərpa olunub. Bununla belə, cəmi yeddi aydır ki, sülhdə yaşayırıq. Lakin biz bunun faydasını artıq hiss edirik və əminəm ki, Ermənistanla sülh daimi olacaq. Biz, həmçinin ticarətə başlamışıq. Ermənistana mühüm neft məhsullarının təchizatına başlamışıq. Digər ölkələrdən Azərbaycan ərazisi vasitəsilə Ermənistana gedən yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırmışıq. Bu isə bir daha güclü siyasi iradəmizi göstərir, çünki biz sülhə təkcə iki ölkənin parafladığı sənəd üzərində deyil, həmçinin əyani şəkildə nail oluruq. Bu, həmçinin ona görə vacibdir ki, bəzən sənədlər uzun müddət ərzində elə kağız kimi qalır. Bizə gəldikdə, 2023-cü ilin sentyabrından Ermənistanla son qanlı hərbi toqquşmadan 2025-ci ilin avqustunda sülhə nail olmağımızdan iki ildən az vaxt keçir. Düşünürəm ki, əgər hər iki tərəf siyasi iradəni və sülhə sadiqliyini nümayiş etdirərsə, bu, dövlətlərin və xalqların barışığına dəlalət edən ən yaxşı göstəricidir. Sülhdən yaxşı heç nə ola bilməz. İnanın mənə, müharibə şəraitində yaşamağın və ya müharibə etməyin nə olduğunu bilirik. Ona görə bizim kimi ölkələr, ola bilsin, sülhü hər hansı digər ölkədən daha çox dəyərləndirir. Bir sözlə, gündəliyimiz həqiqətən çox genişdir. Biz, əlbəttə, sərhədlərimizə yaxın bölgədə təhlükəsizlik məsələlərini müzakirə etdik. Biz bu gün sonra söhbətimizi davam etdirəcəyik. Bizimlə olduğunuza görə, cənab Prezident, bir daha təşəkkür edir, Sizə xoş səfər arzulayıram.

x x x

Sonra Avropa İttifaqı Şurasının Prezidenti bəyanatla çıxış etdi



## Antonio Koşta: Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir

-Günortanız xeyir. İlk növbədə, burada Bakıda olmaqdan məmnunam. Prezident Əliyev, xüsusilə regionda geosiyasi vəziyyətin sürətlə dəyişməsi kimi mürəkkəb şəraitdə dəvətinizə və səmimi qarşılamanıza görə Sizə təşəkkür edirəm.

Mən Avropa İttifaqının Azərbaycan xalqı ilə tam həmrəyliyini ifadə etmək istərdim. İcazə verin, Avropa vətəndaşlarının İrandan təhlükəsiz şəkildə öz ölkələrinə qayıtmasına şərait yaratdığı üçün Azərbaycanın göstərdiyi yardıma görə səmimi minnətdarlığımı çatdırım. Azərbaycan Respublikası Avropa İttifaqının əsas tərəfdaşıdır. Ötən bir il ərzində biz münasibətlərimizi yenidən canlandırmışıq. Bugünkü görüş bizim xüsusilə təhlükəsizlik, enerji, rəqəmsal və nəqliyyat sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsinə olan birgə öhdəliyimizin bariz əlamətidir. Təhlükəsizlik və insan haqları da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam şəkildə istifadə etmək məqsədilə hazırda biz Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq üçün yeni çərçivə üzərində işləyirik. Bu, bizim gələcəyə birgə baxışımıza dair güclü siqnal verir. Biz, həmçinin müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığımızı dərinləşdirmək üçün yollar araşdırırıq.

Prezident Əliyevin söylədiyi kimi, enerji təhlükəsizliyi ikitərəfli əməkdaşlığımızın təməlini təşkil edir. Dörd il bundan əvvəl Versalda Avropa İttifaqı Şurası qaz, neft və kömürün təchizatı mənbələrinin şaxələndirilməsinə dair qərar qəbul etdi. Azərbaycan Cənub Qaz Dəhlizi sayəsində bu səylərdə həlledici rol oynadı. Bu gün nəticə göz qabağındadır. İrandakı müharibənin qlobal enerji bazarlarını sarsıtdığı bir vaxtda bizim enerji sahəsində hazırkı tərəfdaşlığımız heç zaman olmadığı kimi daha əhəmiyyətlidir. Avropa İttifaqı Azərbaycanın enerji keçidini dəstəkləmək üçün özəl investisiyaları və maliyyələşməni səfərbər etməyə hazırdır. Biz, həmçinin Avropanın təmiz texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlərini sizin geniş planınızda daha fəal iştirak etməyə çağırırıq.

Daşımalar bizim əməkdaşlığımızın başqa bir mühüm sahəsidir. Orta Dəhlizin inkişafı yeni nəqliyyat bağlantıları üçün strateji fürsətdir. Bakı-Naxçıvan dəmir yolu əlaqəsinin tamamlanması bu mənada böyük əhəmiyyət kəsb edəcək. Avropa ilə Asiya arasında ticarət dayanıqlılığını gücləndirməklə biz iş yerləri yarada, artımı stimullaşdıra və iqtisadiyyatlarımızı birlikdə gücləndirə bilərik. Avropa İttifaqı Azərbaycanın dinc, sabit, qarşılıqlı əlaqələrə əsaslanan və çiçəklənən Cənubi Qafqaz hədəfini bölüşür. Ermənistanla sülh prosesində əldə edilən irəliləyiş tarixi əhəmiyyət kəsb edir.



Vaşinqton razılaşmaları sizin dialoq və barışığa sadiqliyinizi əks etdirir. Avropa İttifaqı bu razılaşmaların həyata keçirilməsinin dəstəklənməsində sizin yanınızdadır.

Biz həqiqi sülhün təkcə siyasi razılaşmalar, Sizin dediyiniz kimi kağız üzərində yox, insanların gündəlik həyatları, iqtisadi-ticari əlaqələr və ortaq rifah üzərində qurulduğunu bilirik. Qarşılıqlı iqtisadi asılılığın gücləndirilməsi uzunmüddətli sabitliyə aparan birmənalı yoldur və Avropa İttifaqı hamının faydası üçün bu imkanlardan yararlanmağa kömək etməyə hazırdır. Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir. Mən İranda və Yaxın Şərqdə baş verən, sizə çatmış təhlükəli hərbi eskalasiya fonunda üzləşdiyiniz çağırışları bilirəm. İcazə verin, bir daha Avropa İttifaqı adından Azərbaycan və onun xalqı ilə tam həmrəy olduğumuzu ifadə edim.

Biz bu yaxınlarda İran tərəfindən Naxçıvan hava limanına edilmiş hücumu qətiyyətlə pisləyirik. Regional sabitliyi və təhlükəsizliyi Beynəlxalq Millətlər Təşkilatının və beynəlxalq hüququn prinsiplərinə tam riayət edərək qorumaq zəruridir. Avropa İttifaqı bütün gərginliyi azaltmaq və vətəndaşları qorumaq üçün dialoq və diplomatiya vasitəsilə bütün tərəfdaşlarla işləməyə sadiqdir. Vəziyyətin daha da kəskinləşməsi təkcə Yaxın Şərqi deyil, Avropanı və daha geniş dünyanı təhlükə altına atır.

Bununla belə, cərəyan edən son hadisələr beynəlxalq hüquqa zidd olaraq zorakı fəaliyyətin narahatedici tendensiyasını bildirir. Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsi artıq beşinci ildir ki, davam edir. Bu müharibə Avropa üçün ekzistensial təhlükə olaraq qalır və qlobal miqyasda vəziyyəti poza biləcək amildir.

Qlobal sabitsizlik fonunda aramızdakı əlaqələri gücləndirmək heç zaman olmadığı qədər vacibdir. Biz 2028-ci ildə Azərbaycanın Avropa Siyasi Birliyinin Zirvə Görüşünə ev sahibliyi etməsini səbirsizliklə gözləyirik.

Sonda icazə verin, bir daha vurğulayım ki, Avropa İttifaqı bu günün çağırışlarını sabahın fürsətlərinə çevirmək üçün Azərbaycanla işləməyə sadiqdir. Sizin rəhbərliyiniz zəruridir və bizim tərəfdaşlığımız güclüdür. Biz onu xalqlarımızın rifahı naminə birlikdə daha da genişləndirə bilərik.

Növbəti aylarda Sizi Brüsseldə qəbul edəcəyimə ümid edirəm.

Çox sağ olun, cənab Prezident.




# Zəngəzur dəhlizi (TRIPP): yeni əməkdaşlıq və təhlükəsizlik aləti...

## Avrasiyanın yeni logistik aortasının önəmi daha da artır

Yaxın Şərqdə baş verən hadisələr təbii olaraq regional proseslərə təsir göstərir - bəzən, bu, yalnız hərbi-siyasi prizma ilə izah edilsə də, konturlar daha genişdir. 2025-ci ilin sonuna qədər qlobal əməkdaşlıq imkanlarının yeni alətlərinin formalaşdırılması prosesi sürətlə inkişaf edirdi - yeni dönəmdə perspektivlər, gözləntilər və reallıqlar üzərindən bu müstəvinin formalaşdırılması üzərində strateji fəaliyyət ortaya qoyulurdu. Amma son iki ayda baş verənlərə daha geniş miqyasda baxdıqda aydın olur ki, bu qarşıdurmalar həm də qlobal iqtisadi nizama yeni ştrixlər gətirir. Sirr deyil ki, müasir dövrün əsas mübarizəsi enerji resurslarına və ticarət yollarına nəzarət uğrunda aparılır. Tarix boyu böyük güclərin rəqabət meydanı olan əsas marşrutlar bu gün də qlobal geosiyasətin taleyini müəyyənləşdirir. Son dövrlərdə baş verən hadisələrin xronoloji ardıcıllığına nəzər saldıqda qarşıdurmaların bir neçə strateji ticarət xətti ətrafında cəmləşdiyini görmək mümkündür:

- Süveyş kanalı üzərində yaranan gərginliklər:
- Mərkəzi Avropa - Arktika istiqamətində formalaşan Şimal ticarət marşrutu ətrafındakı müharibə;
- Yaxın Şərq və Hind okeanı istiqamətindəki Cənub ticarət xəttinin təhlükə parametrlərinin yüksəkliyi;
- Atlantik okeanı ilə Sakit okeanı birləşdirən Panama kanalının strateji əhəmiyyəti bu mənada xüsusi yer tutur.

Bu marşrutların hər biri qlobal logistika sisteminin vacib komponentidir və bu xətlər üzərində yaranan istənilən siyasi və ya hərbi gərginlik dünya iqtisadiyyatının ritminə birbaşa təsir göstərir.

Məhz belə bir şəraitdə yeni və daha təhlükəsiz logistika marşrutu olaraq Zəngəzur dəhlizi (TRIPP) diqqət mərkəzinə düşür. Avrasiyanın mərkəzində yerləşən və Şərqlə Qərbin təbii qovşağı sayılan Azərbaycan yeni iqtisadi düzənin formalaşmasında xüsusi rol oynamağa başlayıb. Azərbaycanın coğrafi mövqeyi, inkişaf etmiş nəqliyyat infrastrukturu və siyasi sabitliyi onu qlobal logistika sistemində vacib halqaya çevirir.

**Bakı qovşaq yaradıb...**

Hazırki konfrantasiyaların fonunda Zəngəzur dəhlizi (TRIPP) bütövlükdə Avrasiya məkanında ticarət xəritəsini dəyişdirə biləcək strateji təşəbbüsə çevrilir. Əlverişli və qısa ticarət marşrutlarının axtarıldığı bir dövrdə bu dəhliz Şərqlə Qərb arasında ən rasional alternativlərdən biri kimi ön plana çıxır. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə yaratdığı müasir logistika infrastrukturu da bu təşəbbüsün reallaşması üçün möhkəm baza formalaşdırır.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanın 2020-ci ildə Vətən müharibəsində qazandığı qələbə və 2023-cü ilin sentyabrında ölkə ərazisində separatizmin tamamilə aradan qaldırılması regionda təhlükəsizlik mühitini köklü şəkildə dəyişdirdi. Bu proses Cənubi Qafqazda yeni siyasi reallıqlar formalaşdırdı və regionun iqtisadi potensialının açılması üçün yeni imkanlar yaratdı. Artıq Cənubi Qafqaz yalnız geosiyasi rəqabət zonası deyil, həm də qlobal ticarət və əməkdaşlığı üçün perspektivli məkan kimi xarakterizə olunur. Bu təşəbbüs qlobal iqtisadi münasibətlərin yeni mərhələsinin mühüm elementinə çevrilir və Avrasiyanın iqtisadi inteqrasiyasında yeni bir səhifə açır.

**Zəngəzur dəhlizi (TRIPP) bütövlükdə Avrasiya məkanında ticarət xəritəsini dəyişdirə biləcək strateji təşəbbüsə çevrilir. Əlverişli və qısa ticarət marşrutlarının axtarıldığı bir dövrdə bu dəhliz Şərqlə Qərb arasında ən rasional alternativlərdən biri kimi ön plana çıxır. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə yaratdığı müasir logistika infrastrukturu da bu təşəbbüsün reallaşması üçün möhkəm baza formalaşdırır**

**Azərbaycanın formalaşdırdığı Cənubi Qafqaz reallıqları**

Zəngəzur (TRIPP) dəhlizinin hazırkı dönəmdə real çıxış yolu olmasını şərtləndirən amillərə nəzər salsaq, bir sıra elementləri vurğulamalıyıq - ilk növbədə Vətən müharibəsindən sonra Cənubi Qafqaz regionunda formalaşan yeni təhlükəsizlik mühiti bölgənin geosiyasi və iqtisadi mənzərəsini köklü şəkildə dəyişdirdi. Azərbaycanın əldə etdiyi qələbə Mərkəzi Asiyadan keçən və Çin iqtisadi məkanını Qərb bazarları ilə birləşdirən ticarət xəttinin məhz bu regiondan keçməsini zəruri etdi. Bu marşrut Çin - Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya - Avropa istiqamətində formalaşan geniş logistika sisteminin əsas komponentlərindən biri kimi çıxış edir. Azərbaycan isə bu sistemin əsas koordinasiya mərkəzidir - Bakı həm siyasi təşəbbüsləri, həm də həyata keçirdiyi iri infrastruktur layihələri vasitəsilə regionun tranzit potensialını reallaşdırmağa nail olub. Zəngəzur dəhlizi (TRIPP) isə bu logistika sisteminin tamamlayıcı elementi kimi xüsusi əhəmiyyət daşıyır. Bu dəhliz Cənubi Qafqazın uzunmüddətli sülh və əməkdaşlıq platformasına çevrilməsi üçün real mexanizmdir:

- Dəhliz region ölkələri arasında iqtisadi qarşılıqlı asılılığı artıraraq münaqişə risklərini minimuma endirir;
- Dəhliz qlobal tərəfdaşlığın qütbləraraşı imkanlarını genişləndirir.
- Bu layihə Türkiyə ilə Avropa arasında yeni iqtisadi mərhələnin başlanmasına şərait yaradır. Türkiyənin Avropa üçün vaciblilik indeksini artırır.
- Nəhayət, ən mühüm amillərdən biri dəhliz Çin ilə Qərb arasında iqtisadi sabitliyin qorunmasına xidmət edir. Alternativ və təhlükəsiz ticarət marşrutunun mövcudluğu qlobal logistika sisteminin dayanıqlığını oturuşdurur.

Göründüyü kimi, Bakının təşəbbüsü ilə irəli sürülən bu layihə yalnız regional nəqliyyat xətti deyil, həm də geniş mənada yeni təhlükəsizlik və əməkdaşlıq konsepsiyası kimi qiymətləndirilə bilər.

**İqtisadi səmərəlilik indeksi yüksəkdir**

Zəngəzur dəhlizinin (TRIPP) izahı siyasi və geosiyasi baxımdan daha çox iqtisadi səmərəlilik baxımından verilməlidir. Müasir qlobal iqtisadi sistemdə logistika xərclərinin azaldılması və ticarət marşrutlarının optimallaşdırılması dövlətlərin iqtisadi strategiyalarında əsas prioritetlərdən biri hesab olunur. Bu baxımdan, Zəngəzur dəhlizi (TRIPP) digər alternativ marşrutlarla müqayisədə bir sıra mühüm üstünlüklərə malikdir.

- Marşrut coğrafi baxımdan daha qısa olmaqla yük daşımalarının vaxtını əhəmiyyətli dərəcədə azaldır. Vaxt faktoru isə beynəlxalq ticarətdə ən vacib amillərdən biridir. Yüklərin daha qısa müddətdə çatdırılması həm logistik xərcləri azaldır, həm də ticarət dövriyyəsinin sürətini artırır.
- Marşrutun geniş coğrafi əhatəyə malik olması xüsusi üstünlükdür. Zəngəzur dəhlizi (TRIPP) yalnız Cənubi Qafqaz ölkələri üçün deyil, həm də Mərkəzi Asiya dövlətləri, Türkiyə, Yaxın Şərq və Avropa üçün strateji əhəmiyyət daşıyır. Bu dəhliz vasitəsilə formalaşacaq logistika şəbəkəsi Avrasiyanın böyük bir hissəsini əhatə edə bilər;
- Marşrutun dayanıqlılığı da diqqəti cəlb edən məsələlərdəndir. Bununla yanaşı, Zəngəzur dəhlizi yalnız tranzit marşrutu deyil, həm də yeni iqtisadi imkanların formalaşmasına şərait yaradır. Dəhliz boyunca logistika mərkəzlərinin, sənaye zonalarının və yeni iqtisadi klasterlərin yaradılması regionun iqtisadi inkişafını sürətləndirə bilər. Təsadüfi deyil ki, Bakının Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı ortaya qoyduğu mövqedə bu amil xüsusən parlaq şəkildə vurğulanır.
- Qlobal Cənub ölkələri üçün də bu layihə xüsusi maraq doğurur. Körfəz ölkələri, Yaxın Şərq dövlətləri və Asiyanın bir sıra iqtisadi mərkəzləri üçün Avropaya çıxış imkanlarının genişlənməsi yeni ticarət perspektivləri yaradır.

Ortaya çıxan nəticə onu göstərir ki, Zəngəzur dəhlizi (TRIPP) qlobal logistika sisteminin effektivliyini artıran mühüm element kimi qiymətləndirilir. Bu layihə regionun iqtisadi inkişafına güclü impuls verir.

**Zəngəzur dəhlizi (TRIPP) ətraf kataklizmlərdən təsirlənməyəcək...**

Təhlükəsizlikdən bəhs açarkən ətrafımızda baş verən proseslərin nəzərə alınması da zəruri şərtə çevrilir. Ənənəvi olaraq baş verən kataklizmlər və regional gərginliklər çox vaxt iri iqtisadi layihələrin reallaşmasına, fəaliyyətinə bu və ya digər şəkildə təsir göstərir. Yaxın Şərqdə davam edən münaqişələr, böyük güclər arasında artan rəqabət və müxtəlif regionlarda müşahidə olunan siyasi qeyri-sabitlik beynəlxalq ticarət marşrutlarının təhlükəsizliyini daim gündəmdə saxlayır. Hətta bəzi iqtisadçı ekspertlər regionun mürəkkəb geosiyasi vəziyyətini nəzərə alaraq marşrutun gələcəyi ilə bağlı müəyyən risklərin mövcudluğunu da istisna etmirlər.

**Azərbaycanın müəllifi olduğu reallıqlar gərginliklərə tabe olmur - əksinə, sabitləşdirici faktora çevrilir**

Amma bu belə deyil - Azərbaycanın bölgədə yaratdığı təhlükəsizlik mühiti və həyata keçirdiyi sabitlik siyasəti regionun logistika layihələri üçün etibarlı platformaya çevrilməsinə imkan verir. Zəngəzur dəhlizinin (TRIPP) də ən böyük üstünlüklərindən biri regional gərginlikləri azaltmaq potensialıdır. İqtisadi əməkdaşlıq və qarşılıqlı maraqların güclənməsi siyasi qarşıdurmaların zəifləməsinə gətirib çıxarır. Tarix də göstərir ki, iqtisadi inteqrasiya münaqişələrin qarşısını alan ən effektiv mexanizmlərdən biridir. Digər tərəfdən, bu dəhliz Qərb və Çin arasında mövcud olan Şimal-Cənub ticarət marşrutları ilə inteqrasiya imkanlarını da genişləndirə bilər. Bu isə Avrasiyada daha çevik və çoxşaxəli logistika şəbəkəsinin formalaşmasına şərait yaradar. Beləliklə, Azərbaycanın müəllifi olduğu reallıqlar gərginliklərə tabe olmur - əksinə, sabitləşdirici faktora çevrilir.

**Yeni enerji marşrutlarının dəstəkçisi...**

Zəngəzur dəhlizinin (TRIPP) öz analogiyalarından əsas fərqi genişspektrli olmasıdır. Dəhliz yalnız nəqliyyat və logistika layihəsi kimi deyil, həm də enerji əməkdaşlığının genişləndirilməsi baxımından mühüm platforma kimi çıxış edə bilər. Təsadüfi deyil ki, Azərbaycan artıq uzun illərdir ki, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Xəzər hövzəsinin enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması üçün həyata keçirilən layihələr ölkəni regionun əsas enerji mərkəzlərindən birinə çevirib. Bu baxımdan yeni nəqliyyat və kommunikasiya marşrutlarının yaradılması enerji layihələrinin də genişlənməsinə əlavə imkanlar yaradır. Müasir dövrdə regional konfrantasiyalar zamanı ənənəvi enerji marşrutlarının bağlanmasının təsirləri açıq şəkildə hiss olunur.

Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə yalnız ənənəvi enerji resurslarının deyil, həm də "yaşıl enerji"nin Avropa bazarlarına çatdırılması perspektivləri də mövcuddur. Azərbaycan son illərdə bərpa olunan enerji sahəsində böyük layihələr həyata keçirir və bu istiqamətdə beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edir. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji zonası" elan edilməsi də bu strategiyanın mühüm elementlərindən biridir. Bu baxımdan Zəngəzur dəhlizi (TRIPP) yeni enerji xətlərinin çəkilməsi üçün əlverişli marşrut hesab olunur. Elektrik enerjisi ötürmə xətləri, enerji infrastrukturu və digər texniki layihələr bu dəhliz boyunca inkişaf etdirilə bilər.

**Münaqişə riskini azaldan amil...**

Bu gün qlobal düşüncədə ən aparıcı element sayılan ticarətin davamlığını təmin etmək strateji zərurət halına gəlib. Zəngəzur dəhlizi (TRIPP) isə Avrasiya məkanında bu məsuliyyəti üzərinə götürə bilər. Çünki Zəngəzur dəhlizi (TRIPP) yalnız regional təşəbbüs deyil, həm də qlobal logistika sisteminin şaxələndirilməsinə xidmət edən strateji layihədir. Eyni zamanda, bu layihə regionda sülh və əməkdaşlığın möhkəmlənməsinə də xidmət edə bilər. İqtisadi inteqrasiyanın güclənməsi, qarşılıqlı ticarətin artması və regional layihələrin genişlənməsi münaqişə risklərini azaldan əsas amillərdən biridir.

*Pərviz SADAYOĞLU*

# Dövlət şirkətləri hesabat verdi

## Azərbaycan İnvestisiya Holdinqinin iclasında maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılması müzakirə olunub

Martın 10-da Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının iclası keçirilib. Baş nazir, AİH Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasda holdinqin idarəetməsində olan portfel şirkətlərin 2025-ci ilin yekunları üzrə fəaliyyət hesabatı, əsas fəaliyyət göstəriciləri və maliyyə nəticələri, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC-nin inkişaf perspektivlərinə ümumi baxış müzakirə olunub. Tədbirdə, dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı qəbul edilmiş yeni normativ-hüquqi aktların AİH-nin portfel şirkətlərinə tətbiqi məsələləri də nəzərdən keçirilib. Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov AİH-in idarəetməsinə verilmiş dövlət şirkətlərinin və müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin təmin olunması, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılması sahəsində vəziyyət barədə məlumat verib.

### İdarəetmənin tələbi: İqtisadi səmərəlilik və şəffaflıq

Azərbaycanda iqtisadiyyatın liberallaşdırılması, iqtisadi diversifikasiya və səmərəliliyin artırılması məqsədilə davamlı struktur islahatları həyata keçirilir. Bu islahatlar dövlət müəssisələrinin fəaliyyət sahəsini də əhatə edir. Bu məqsədlə təsis edilmiş AİH ölkə iqtisadiyyatının inkişafına təkan vermək məqsədilə dövlət siyasətinin formalaşdırılmasında iştirak edən və aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq çərçivəsində səmərəverici təkliflər hazırlayıb həyata keçirir. Azərbaycan İnvestisiya Holdinqinə dövlət müəssisələrinin idarəçiliyinin həvalə olunması, dövlət müəssisələrində yaradılan müşahidə şuraları vasitəsilə müəssisələrin fəaliyyətinə nəzarətin həyata keçirilməsi yeni idarəetmə metodunun üstünlüklərindəndir. Holdinq qabaqcıl beynəlxalq təcrübədən istifadə etməklə dövlət müəssisələrində idarəetməni təşkil edir, dövlət müəssisələrinin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşırır, bu məqsədlə onların maliyyə resurslarını, habelə xarici borcların cəlb olunmasını effektiv meyarlar əsasında idarə edərək özəl investisiyaları gətirir, habelə dövlət-özəl sektor tərəfdaşlığının inkişafını stimullaşdırır. Həmçinin dövlət müəssisələrinin xərclərinin optimallaşdırılması və maliyyə şəffaflığının təmin edilməsi ilə bağlı tədbirlər görmək və onların beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artırmaq, dövlətin ayırdığı investisiyalardan səmərəli istifadəyə nəzarət etmək hüquqlarına malikdir.

AİH-in idarəçiliyində olan iri dövlət şirkətləri sırasında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), “Azərbaycan alüminiumu” ASC, “Təmiz Şəhər” ASC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərbaycan Beynəlxalq Bankı” ASC, “Azər Türk Bank” ASC və payı (səhmləri) dövlətə məxsus şirkətlər daxildir. AİH-in idarəetməsi altında olan şirkətlərin vahid investisiya platformasında birləşdirilməsi sayəsində son illərdə bu, strateji müəssisələrdə korporativ idarəetmə prinsipləri qurulub, iqtisadi effektivliyinin yüksəldilməsi, maliyyə dayanıqlılığının yaxşılaşdırılması istiqamətində ardıcıl addımlar atılmaqdadır. AİH-ə aid dövlət şirkətlərində Müşahidə şuralarının yaradılması isə bu sektorda məsuliyyətin bölüşdürülməsi, hesabatlılığın təmin edilməsi, müəssisələrinin fəaliyyətində iqtisadi dividendlərin artması baxımından mühüm əhəmiyyət kəsb etməkdədir. Bu, yeni yanaşma tərzi sayəsində müəssisələrdə intizamlı xərc siyasətinin tətbiqi, yeni gəlir mənbələrinin yaradılması, büdcə dotasiyalarının minimallaşdırılması, şirkətlərin büdcəyə ödəmələr edən kommersiya əsaslı strukturlara çevrilməsi təmin olunur.




### Dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi

Azərbaycanda siyasi və maliyyə-iqtisadi sabitlik, əlverişli işgüzar mühit, azad bazar münasibətlərinin hərtərəfli inkişafı, dayanıqlı özəl mülkiyyətin dəstəklənməsi kimi amillər iqtisadi inkişafı sürətləndirir, xarici investorların ölkəmizə marağını artırır. Eyni zamanda, ölkə vətəndaşlarının iqtisadi inkişafdan tədricən daha çox bəhrələnməsi imkanları artır. İri dövlət müəssisələrinə özəl investisiyaların cəlbi onların fəaliyyətinin rəqabət mühitinin tələblərinə uyğunlaşdırılmasına təminat yaradır. Bu baxımdan, dövlət başçısının 31 avqust 2023-cü il tarixli “Azərbaycan Respublikasının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında” sərəncamı xüsusilə önəmlidir. Sərəncamda göstərilən tapşırıqların icrası iri müəssisələrin idarə edilməsində və maliyyə payında dövlətin yükünün azaldılmasına, dövlət-özəl sektor tərəfdaşlığının genişləndirilməsinə hədəflənib. Sənəd ölkədə korporativ idarəetmə mexanizmlərinin daha geniş tətbiqinə və kapital bazarlarının canlandırılmasına şərait yaradacaq. Bununla yanaşı, Sərəncam dövlət müəssisələrinin idarə edilməsində vətəndaşların iştirakı və həmin müəssisələrə özəl investisiyaların yatırılması imkanlarını genişləndirmək məqsədi daşıyır.

Sənədə əsasən, nüfuzlu beynəlxalq məsləhətçi şirkətlərin cəlb olunması ilə təhlillər aparılaraq təkliflər hazırlanacaq. Təkliflər dövlət müəssisələrinin restrukturlaşması və sağlamlaşdırılması, qiymətləndirilməsi, potensial investorların müəyyənləşdirilməsi, müvafiq bazarın liberallaşdırılması və inhisarsızlaşdırılması, dövlət müəssisələrinin əsas fəaliyyətinə uyğun olmayan digər fəaliyyətin özəl sektora ötürülməsi imkanları, həmin dövlət müəssisələrinin təşkilati-hüquqi formasının dəyişdirilməsi, onların özgəninkiləşdiriləcək hissələri və dövlət iştirak payının hissəvi satış üsullarını, habelə bununla əlaqədar mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi məsələlərini əhatə edəcək. Ümumilikdə özəl investisiyaların konsolidasiyası və özəl sahibkarlıq subyektləri ilə dövlət müəssisələri arasında olan əməkdaşlığın genişləndirilməsi sayəsində milli iqtisadiyyatın strukturu daha sürətlə şaxələnəcək və qeyri-neft-qaz sektorundan asılılığı azalacaq, rəqabətqabiliyyətliliyi yüksələcək.

### Xarici şirkətlərlə birgə investisiya fondlarının yaradılması

Azərbaycan İnvestisiya Holdinqi beynəlxalq şirkətlərlə də sıx əməkdaşlıq edərək birgə sərmayə fondlarının yaradılması, investisiyaların qarşılıqlı təşviqi istiqamətində də çalışır. AİH və Oman İnvestisiya Qurumu arasında Azərbaycan-Oman Birbaşa İnvestisiya Fondunun yaradılması ilə bağlı Səhmdarlar Müqaviləsinin imzalanması bu baxımdan nümunəvi model sayıla bilər. Birgə Fondun fəaliyyəti ikitərəfli investisiya əməkdaşlığının gücləndirməsinə, ərzaq sənayesi, səhiyyə, bərpaolunan enerji, istehlak malları və logistika kimi müxtəlif sahələrdə Azərbaycan, Oman, Mərkəzi Asiya və digər ölkələrdə strateji investisiya layihələrini həyata keçirməklə ölkələrimizin iqtisadi inkişafına töhfə verəcək.

Fondun ilkin kapitalı 200 milyon ABŞ dolları məbləğində müəyyən edilib. Bu məbləğin 100 milyon dolları AİH, 100 milyon dolları isə OİQ tərəfindən təmin ediləcək. Bu Fond Azərbaycan və Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələr arasında əlaqələrin güclənməsində də yeni iqtisadi sinerji formatı hesab olunur.

Bundan başqa, Azərbaycan İnvestisiya Holdinqi ilə Çinin “Silk Road Fund” (SRF) şirkəti arasında imzalanmış Çərçivə Sazişinə əsasən, əməkdaşlıq layihələrinin həyata keçirilməsi, o cümlədən infrastruktur, enerji və təbii ehtiyatlar, sənaye və maliyyə sahələrində investisiya imkanlarının araşdırılması nəzərdə tutulur. AİH-lə Vyetnamın aparıcı elektrik nəqliyyat vasitələri istehsalçısı olan “VinFast” şirkəti arasında da birgə fəaliyyət imkanları çərçivəsində layihələrin icrası planlaşdırılır.

*E.CƏFƏRLİ*

# AŞPA-nın yolunu tutanlara cavab

## Ölkəmizdə azad medianın fəaliyyəti üçün bütün imkanlar var

*Nardar BAYRAMLI*




Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan güclü, nüfuzlu ölkə kimi tanınır. Şübhəsiz ki, ölkəmizin dinamik tərəqqisinin və ictimai-siyasi sabitliyin əsasında müvəffəqiyyətlə həyata keçirilən praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi və institusional islahatların uğurla həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq nüfuzu və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir.

**Saxta ittihamlar cavabsız qalmır**

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra isə Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin və onun lideri- Prezident İlham Əliyevin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Lakin bəzi qərəzli dairələr Azərbaycanın uğurlarını, xüsusilə qələbəsini həzm edə bilmirlər. Bunun üçün də ölkəmizin müsbət beynəlxalq imicinə xələl gətirmək üçün “qara piar” kampaniyası aparır, reallıqlara uyğun olmayan məlumatlar yayırlar. Avropa Şurası da məhz belə təşkilatlardandır.

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunana qədər bu təşkilat ölkəmizdə demokratiya və insan haqları ilə bağlı saxta məlumatlar yayırdı. Lakin hər dəfə qurumun cavabı arqumentlər əsasında verilirdi. Diqqətə çatdırılırdı ki, Azərbaycan bütün azadlıqların təmin edildiyi müasir, demokratik ölkədir. İnkişafın milli modelini formalaşdıran Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır və bir-birini tamamlayır. Azad, demokratik cəmiyyət quruculuğuna nail olunması ölkəmizin müstəqillik illərində əldə etdiyi ən mühüm uğurlardan biridir.

**Təşkilat erməni lobbisinin girovuna çevrilib**

Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə Avropa Şurası bu işğal siyasətinə görə rəsmi İrəvanı heç vaxt tənqid etmədi, yüzminlərlə azərbaycanlının doğma yurdlarından didərgin düşməsini səssizliklə qarşıladı. Azərbaycan öz torpaqlarını işğaldan azad etməyə başladıqda isə təşkilat yenidən “fəallaşaraq” Ermənistanın vəkili rolunda çıxış etdi. Avropa Şurasının müxtəlif strukturları da bu prosesə “fəal” qoşuldular. Bu baxımdan, Avropa Şurası Parlament Assambleyası “xüsusi” rol oynayıb. Qarabağdakı erməni separatizminə qon qoyulduqdan sonra AŞPA-nın qəbul etdiyi qərəzli qətnamə, Azərbaycan nümayəndə heyətinə qarşı əsassız addımlar bunun göstəricisidir.

Bu dəfə isə Avropa Şurasının Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi Platforması AŞPA-nın yolunu davam etdirir. Belə ki, bu platforma tərəfindən dərc olunmuş Avropada mətbuat azadlığının vəziyyətinə dair 2025-ci il üzrə illik hesabatda Azərbaycanın media mühiti ilə bağlı birtərəfli, qərəzli mülahizələrə yer verilib. Xüsusilə “Media haqqında” Qanuna 2025-ci ildə edilmiş dəyişikliklərlə bağlı hesabatda əks olunan yanaşmalar spekulyativ xarakter daşıyır.

Məsələ ilə bağlı Medianın İnkişafı Agentliyinin bəyanatında bildirilir ki, “Media haqqında” Qanuna edilən dəyişikliklər cəmiyyətin və media ictimaiyyətinin tövsiyələri, istək və təklifləri əsas götürülməklə irəli sürülüb ki, burada əsas məqsəd ölkəmizin informasiya mühitinin qorunaraq sağlamlaşdırılması, media brendinin möhkəmləndirilməsi və peşəkar jurnalistin nüfuzunun gücləndirilməsi, cəmiyyətin tələblərini nəzərə alaraq informasiya məkanında bu və ya digər neqativ hallara qarşı mübarizə kontekstində dövlət tənzimlənməsində həssaslığın artırılması, çevikliyin təmin olunmasıdır. Bu tip spekulyativ yanaşmalardan biri də çap mediası subyektlərinə dair fikirlərdə təzahür edir. Halbuki hesabatda göstərilənlərdən fərqli olaraq müvafiq dəyişikliklərdə ümumən media subyektlərinin adlarında ictimai qaydaya, mənəviyyata və əxlaqa zidd olan, istifadəçiləri yanılda bilən ifadələrdən istifadənin yol verilməzliyi ilə bağlı müddəa yer alır, bu da xarici və beynəlxalq təcrübədə geniş tətbiq olunan, istifadəçilərin subyektdən gözləntilərinə dair hüquqlarının, həmçinin media subyektlərinin marka dəyərinin qorunmasına xidmət edir.

**MEDİA iddialara cavab verib**

Bəyanatda diqqətə çatdırılıb ki, Azərbaycanda jurnalistlərin peşə fəaliyyətinə görə hər hansı məhdudiyyət mövcud deyil və ölkədə ifadə azadlığı hüquqi və praktiki olaraq tam təmin edilib: “Eyni zamanda, vurğulayırıq ki, Azərbaycanda irqi, dini, mənşə, cinsi, etnik, habelə peşə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar qanun qarşısında bərabər məsuliyyət daşıyır. Hesabatda adı hallanan konkret şəxslərlə bağlı məsələ üzrə isə bildiririk ki, ictimaiyyətə açıq olan iş materiallarının təfərrüatlarından həmin şəxslərin peşə fəaliyyətləri ilə onlara qarşı irəli sürülmüş cinayət və inzibati ittihamlar arasında heç bir əlaqənin olmadığı, müvafiq iddiaların, sadəcə, uğursuz manipulyasiya cəhdlərini ifadə etdiyi aydın görünür. Bununla yanaşı qeyd edirik ki, media subyektlərinin müvafiq qaydada qeydiyyata alınması və Media Reyestrinə daxil edilməsi ilə bağlı tələb Azərbaycanda fəaliyyət göstərən bütün media subyektlərinə, o cümlədən xarici media subyektlərinin filial və nümayəndəliklərinə münasibətdə tətbiq edilir və bu istiqamətdəki yeni yanaşmalar mahiyyət etibarilə yalnız texniki-təşkilati baxımdan səmərələşdirici xarakter daşıyır.

Media subyektlərinin Reyestrə informasiya agentliyi kimi daxil edilməsi üçün nəzərdə tutulan tələblər formalaşdırılarkən mövcud praktikanın təhlilinin nəticələri əsas götürülüb, həmçinin informasiya agentliklərinin mahiyyət etibarilə yalnız istehlakçıların deyil, eyni zamanda, digər peşəkar media subyektlərinin də məzmunla təmin edilməsi sahəsindəki müstəsna fəaliyyəti diqqətə alınıb. “Hesabatda istinad olunan ölkəmizdə diffamasiya ilə bağlı qanunvericiliyin mövcud vəziyyətinə dair 2024-cü ildə Platformada dərc olunmuş müvafiq materialla əlaqədar xatırlatmaq istərdik ki, həmin materialda əksini tapan iddialara münasibətdə mövqeyimiz eyni ildə qarşı tərəfə rəsmi şəkildə bildirilib. Azərbaycanla bağlı belə hesabatlar hazırlanarkən rəsmi mövqeyin nəzərə alınmaması, faktların deyil, ehtimalların, subyektiv rəy və mülahizələrin əsas götürülməsi təəssüf doğurur”, - deyə Agentliyin bəyanatında vurğulanıb.

# Hindistanda siqh icmasına qarşı təzyiqlər artır

## BTQ problemlə bağlı Cenevrədə beynəlxalq konfrans keçiriləcək




*Nardar BAYRAMLI*

Son illərdə Hindistan hökumətinin siqh icmasına qarşı təzyiq və təqibləri daha da geniş vüsət alıb. Bu vəziyyət beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq doğurur. Müxtəlif insan hüquqları təşkilatlarının hesabatları göstərir ki, Hindistan hökumətinin siqh fəallarına və diaspor nümayəndələrinə qarşı təqiblərinin coğrafiyası genişlənir və transmilli xarakter alır. Bu məsələ əvvəllər daha çox ABŞ və Kanada kontekstində müzakirə olunurdu, lakin faktlar göstərir ki, oxşar təzyiqlər siqh diasporunun fəal olduğu Avstraliya, Böyük Britaniya və Almaniyada da müşahidə edilir. Bu, siqh fəallarına qarşı aparılan siyasətin sərhəd tanımadığını göstərir.

Məsələ ilə bağlı Bakı Təşəbbüs Qrupunun (BTQ) bəyanatında bildirilib ki, Hindistan hökuməti tərəfindən həyata keçirilən repressiyalar nəticəsində 2023-cü ildə Kanada ərazisində siqh fəalı Hardeep Singh Nijjar öldürülüb. Daha sonra ABŞ-da eyni ildə Hindistan vətəndaşı Nikhil Guptanın siqh fəalı Gurpatvant Singh Pannuna qarşı sui-qəsd planı ABŞ xüsusi xidmət orqanları tərəfindən aşkar edilərək ictimaiyyətə açıqlanıb. Hər iki hadisədə Hindistan hökumətinin əlaqəsi irəli sürülüb.

Transmilli repressiya yalnız fiziki təhdid və zorakılıqla məhdudlaşmır. Repressiya metodları arasında diaspor fəallarının izlənməsi, hədəfli dezinformasiya kampaniyaları, siyasi və diplomatik təzyiq vasitələri, miqrasiya məhdudiyyətləri, reputasiya hücumları və kiberhücumlar yer alır. Bu üsulların məqsədi siqh fəallarını susdurmaq, onların beynəlxalq platformalarda fəaliyyətini məhdudlaşdırmaq və diaspor daxilində qorxu mühiti yaratmaqdır. Vətəndaş cəmiyyəti təşəbbüsləri də bu məsələnin beynəlxalq səviyyədə diqqət mərkəzində qalmasında mühüm rol oynayır. Bakı Təşəbbüs Qrupu beynəlxalq hüquq çərçivəsində siqhlərin ədalətli mübarizəsinə dəstək vermək məqsədilə yanvarın 16-da Bakıda “Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar” adlı beynəlxalq konfrans təşkil edib. Tədbirdə Hindistanda siqhlərə və digər dini azlıqlara qarşı mövcud diskriminasiya və zorakılıq halları müzakirə olunub, beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində mübarizənin davam edəcəyi bildirilmiş və birgə bəyanatlarla yekunlaşıb.

Tədbirdən sonra BTQ-nin rəqəmsal sistemləri kiberhücumlara məruz qalıb. Eyni zamanda, “Sikh Federation Canada” sədri Bual Moninder Singh tədbirdən sonra özünə və ailəsinə qarşı ölüm təhdidləri alıb. Bu hadisələr göstərir ki, siqh məsələsini beynəlxalq platformalarda gündəmə gətirən qurumlar və şəxslər hədəfə çevrilir.

Qlobal diaspor şəbəkələri və rəqəmsal texnologiyalar fonunda bu cür repressiya mexanizmləri müxtəlif ölkələrdə paralel şəkildə həyata keçirilir. Buna görə də məsələ yalnız bir dövlətin daxili siyasəti deyil, transmilli repressiya və insan hüquqlarının qorunması ilə bağlı beynəlxalq problem kimi qiymətləndirilməlidir. Bütün bu təhdidləri ciddi nəzərə alan dünyadakı məşhur siqh təşkilatları birgə addımlar atılması istiqamətində müzakirələr aparırlar. Hindistan hökuməti tərəfindən həyata keçirilən təqiblərin dünya ictimaiyyətinə çatdırılması və qınanması ilkin prioritetlərdəndir. Eyni zamanda, kiberhücumlara qarşı dayanıqlı müdafiə imkanlarının gücləndirilməsi aktual məsələyə çevrilib. “Qlobal düzəndə qeyri-sabitliyin artması və münaqişələrin çoxalması Hindistan hökumətinin əl-qolunu daha da açıb. Dünya ictimaiyyətinin diqqətinin daha çox müharibə və münaqişələrə yönəlməsindən istifadə edən Hindistan hökuməti müxtəlif ölkələrdə siqh fəallarına qarşı daha sərt təqiblər həyata keçirməkdədir”,- deyə bəyanatda vurğulanıb.

Qeyd edək ki, BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyası çərçivəsində İsveçrənin Cenevrə şəhərində Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə “Hindistan hökumətinin transmilli repressiyalarına qarşı mübarizə: Siqhlərin müqaviməti və BMT” adlı beynəlxalq konfrans keçiriləcək. Tədbirdə siqh diasporunun Kanada, Böyük Britaniya, Avstraliya və ABŞ-dakı nüfuzlu nümayəndələri, Hindistan hökumətinin repressiv, irqçilik və təqib siyasətinin birbaşa qurbanı olan şəxslər iştirak edəcəklər. Konfransda Hindistan hökumətinin digər etnik icmalara qarşı həyata keçirdiyi təhdidlər və repressiv siyasət nəticəsində ölkəni tərk etmək məcburiyyətində qalan, hazırda xarici ölkələrdə yaşayan etnik icmaların nümayəndələrinin - siqh fəallarının, diaspor təşkilatlarının rəhbər şəxslərinin, eləcə də onların ailə üzvlərinin Hindistan hakimiyyət orqanları tərəfindən son dövrlərdə artan hücumlara və terror təhdidlərinə məruz qalmaları faktları ətrafında müzakirələr aparılacaq. Təşkil edilmiş hücumların fundamental azadlıqlar və insan hüquqları baxımından yaratdığı ciddi risklər, diaspor təşkilatlarına qarşı yönəlmiş transsərhəd təzyiqlər və təhdidlər ətrafında fikir mübadiləsi aparılacaq.

Bu xüsusda beynəlxalq təşkilatların diqqətinin sözügedən məsələlərə yönəldilməsinin zəruriliyi, Hindistan hökumətinin ölkə daxilində və xaricində etnik azlıqlara qarşı repressiv siyasətinin BMT və onun müvafiq qurumlarının gündəliyinə çıxarılması imkanları, xüsusilə İnsan Hüquqları Şurası çərçivəsində mövcud prosedur və mexanizmlərin daha effektiv şəkildə tətbiqi, eləcə də BMT-nin transsərhəd, etnik azlıqlar və onların hüquqları üzrə ixtisaslaşmış məruzəçiləri (reparteurs) tərəfindən Hindistan hökumətinin siqh icmasına qarşı həyata keçirdiyi qanunsuz təqib və təzyiq hallarının sistemli şəkildə sənədləşdirilməsi, eləcə də bu kimi halların qarşısının alınması məqsədilə qlobal səviyyədə hesabatlılıq və monitorinq mexanizmlərinin daha da gücləndirilməsinin vacibliyi, Hindistan hökumətinin beynəlxalq müstəvidə məsuliyyəti konfransın əsas müzakirə mövzusu olacaq.

Beynəlxalq konfransın ardınca Cenevrə Mətbuat Klubunda Bakı Təşəbbüs Qrupu və Siqh Federasiyası tərəfindən hazırlanmış birgə hesabatın təqdimatı keçiriləcək.

# Tehran şərtlərini açıqladı

## İrana qarşı hücum edilməyəcəyinə zəmanət, təzminat və nüvə enerjisi obyektlərində tam nüvə yanacaq dövriyyəsini tətbiq etməyə razılıq...

Yaxın Şərqdə gərginlik davam etməkdədir. Xatırladaq ki, fevralın sonundan başlanan qarşıdurma böyük dağıntılara və insan itkisinə səbəb olub. İran İslam Respublikasının BMT-dəki daimi nümayəndəsi Əmir Səid İrəvani jurnalistlərə bildirib ki, ABŞ və İsrailin hərbi əməliyyata başlamasından sonra İranda 1,3 mindən çox dinc sakin həlak olub. Diplomatın sözlərinə görə, Amerika və İsrail hərbçiləri əhalinin sıx məskunlaşdığı ərazilərə və kritik infrastruktur obyektlərinə qəsdən zərbələr endirirlər. “Hazırkı vaxta qədər onların bu dəhşətli cinayətləri 1,3 mindən çox dinc sakinin ölümünə səbəb olub”, - deyə İranın ümumdünya təşkilatındakı daimi nümayəndəsi vurğulayıb.

**İrandan Aİ-yə cavab...**

Bu arada İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi İsmail Baqai Avropa Komissiyasının rəhbəri Ursula Fon der Leyenin “İran xalqı azadlığa, ləyaqətə və öz gələcəyini müəyyən etmək hüququna layiqdir” bəyanatına kəskin reaksiya verib. Baqai Fon der Leyenin sosial şəbəkədəki çıxışını şərh edərək onu “tarixin yanlış tərəfində dayanmaqda” və ikiüzlülükdə günahlandırıb. İranlı diplomat qeyd edib ki, Avropa İttifaqı rəhbərliyi işğalı, soyqırımı və vəhşilikləri dəstəkləməklə karyera qurub, indi isə ABŞ və İsrailin İranlılara qarşı hərbi cinayətlərinə göz yumur. Baqai xüsusilə vurğulayıb ki, beynəlxalq hüquq pozuntuları qarşısında susmaq cinayətə şərik olmaq deməkdir. “Minab şəhərində 165 günahsız İranlı uşaq öldürüləndə səsiniz harada idi? Xəstəxanalar, tarixi abidələr, neft obyektləri, polis idarələri və yaşayış məhəllələri namərdcəsinə bombalananda niyə susursunuz?” - deyə diplomat əlavə edib.

**İsrailin şəhərləri bombalandı...**

İsrailin Təl-Əviv şəhərinə bağlı Ramat-Qan bölgəsində İran tərəfindən atıldığı bildirilən ballistik raketin zərbəsindən sonra ciddi dağıntılar qeydə alınıb. Sosial şəbəkələrdə və “Telegram” kanallarında yayılan kadrlarda raketin düşdüyü ərazidə binaların və obyektlərin ciddi ziyan gördüyü əks olunur. Məlumatlara görə, zərbə nəticəsində xüsusilə sənaye və ofis binalarının yerləşdiyi ərazilərə ciddi ziyan dəyib. Hadisə yerinə təcili yardım və xilasedici qruplar cəlb olunub, dağıntıların aradan qaldırılması və mümkün zərərçəkənlərin müəyyənləşdirilməsi üçün əməliyyat aparılıb.

İsrailin başqa şəhərlərində də ardıcıl partlayışlar baş verdiyi bildirilib. Məlumata görə, İran tərəfindən endirilən raket zərbələrindən biri Hayfa şəhərində yerləşən elektrik stansiyasına düşüb. Zərbə nəticəsində obyektdə yanğın baş verdiyi qeyd olunur.

**Dubaya 2 dron düşüb, BƏƏ isə raketləri zərərsizləşdirib**

Dubay Beynəlxalq Hava Limanı yaxınlığına iki dron düşüb. Bu barədə Dubay hökumətinin media ofisi məlumat yayıb. Məlumatda bildirilir ki, hadisə nəticəsində dörd nəfər yaralanıb. Qeyd olunur ki, BƏƏ hakimiyyəti hücumların videolarını yaymaq üçün sərt cəzalar tətbiq edib. Buna görə də hadisələrin yeni görüntüləri getdikcə nadir hallarda yayılır.

Bundan başqa, Bağdaddakı ABŞ diplomatik kompleksinə pilotsuz təyyarə hücumu edilib. Məlumatı “The Washington Post” mənbələrə istinadən yayıb. Verilən məlumata görə, Bağdad hava limanı və İraq hərbi bazalarının yaxınlığında yerləşən, ABŞ diplomatik korpusuna logistik dəstək verən ABŞ diplomatik dəstək mərkəzinə altı PUA ilə hücum edilib, onlardan beşi vurulub.

BƏƏ-nin hava hücumundan müdafiə qüvvələri İrandan raket hücumunun qarşısını alıb. BƏƏ Müdafiə Nazirliyinin açıqlamasına görə, partlayış səsləri hava hücumundan müdafiə sistemi tərəfindən raketlərin vurulması zamanı yaranıb. Nazirliyin “X” səhifəsindəki açıqlamasında belə qeyd olunub.

**Trampdan dialoq məsələsinə münasibət...**

ABŞ Prezidenti Donald Tramp Florida ştatında keçirdiyi mətbuat konfransında İranla bağlı maraqlı açıqlama verib. ABŞ Prezidenti hərbi əməliyyatların “çox uğurlu” davam etdiyini bildirsə də, rəsmi Tehranla birbaşa dialoq imkanlarını istisna etməyib. Tramp jurnalistin “İranla danışıqlar masasına oturacaqsınızmı?” sualına cavab olaraq, “Bəli, mən hər kəslə danışa bilərəm. Mən danışıqların adamıyam. Amma şərtlərimiz bəllidir: nüvə silahı yoxdur, terrora dəstək yoxdur,” - deyə bildirib.

**Pit Heqset: Məğlub edilənə qədər...**

ABŞ Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Den Keyn İranın hərbi əməliyyatları zamanı göstərdiyi müqavimətə münasibət bildirib. Amerikalı general jurnalistlərə açıqlamasında İran qüvvələrinin döyüş meydanında müqavimət göstərdiyini etiraf edib, lakin onların ABŞ-ın əvvəl düşündüyündən daha güclü olmadığını vurğulayıb. “Onlar döyüşürlər və mən buna hörmət edirəm. Amma düşünmürəm ki, onlar bizim əvvəl hesab etdiyimizdən daha qorxulu və ya daha güclüdürlər”, - deyə Den Keyn bildirib.

Pentaqonun rəhbəri Pit Heqset isə bildirib ki, İran tam və qəti şəkildə məğlub edilənə qədər İsraillə birgə İrana qarşı həyata keçirilən əməliyyatı başa çatdırmaq niyyətindədirlər. “ABŞ düşmən tam və qəti şəkildə məğlub edilənə qədər geri çəkilməyəcək. Lakin biz öz qrafikimizə və öz seçimimizə uyğun hərəkət edəcəyik”, - o deyib. Heqset əməliyyatın hansı mərhələdə olduğunu dəqiqləşdirməyib, yalnız ABŞ qoşunlarının tapşırıqları dəqiqliklə yerinə yetirdiyini qeyd edib. “Biz üstün və zəifləməyən diqqətimizi məqsədlərimizə yönəltdiyimiz üçün qalib gələrik. Bu məqsədlər burada “Epik qəzəb” (“Epic Fury”) əməliyyatı ilə bağlı ilk brifinqimi keçirdiyim gündə olduğu kimi dəyişməz olaraq qalır”, - Heqset qeyd edib.

**ABŞ bazaları bombalandı...**

İran isə ABŞ hərbçilərinin yerləşdiyi iki əsas bazaya raket zərbələri endirib. Məlumata görə, zərbələr Birləşmiş Ərəb Əmirliklərində yerləşən Əl-Dafra aviabazasına və Bəhreyndəki Əl-Cufeyr hərbi bazasına yönəlib. Həmin bazalarda ABŞ hərbçilərinin və hərbi texnikasının yerləşdiyi bildirilir. Eyni zamanda, İsrail ərazisində də bir neçə hərbi obyektin hədəfə alındığı qeyd olunur.

SEPAH İsrailə və Yaxın Şərqdəki ABŞ hərbi bazalarına qarşı həyata keçirilən “Doğru vəd - 4” əməliyyatının son mərhələsində 2 ton ağırlığında döyüş başlığı daşıyan raket buraxıldığını bəyan edib. Bu barədə İranın dövlət televiziyası hərbi qurumun açıqlamasına istinadən məlumat yayıb.

Bildirilib ki, əməliyyatın 37-ci mərhələsi çərçivəsində ABŞ qüvvələrinin mövqelərinə 2 tonluq döyüş başlığı ilə təchiz edilmiş “Xürrəmşəhr-4” tipli yeni raketlərlə zərbələr endirilib.

Martın 11-nə keçən gecə İranın İsrail ərazisinə və regiondakı ABŞ hərbi obyektlərinə endirdiyi zərbələr bölgədə gərginliyin kəskinləşməsindən sonra İranın həyata keçirdiyi ən genişmiqyaslı hücum kimi qiymətləndirilib. SEPAH-ın açıqlamasında qeyd olunub ki, “Doğru vəd - 4” əməliyyatının 37-ci mərhələsi çərçivəsində ABŞ-ın Ərbildəki hərbi bazası, Bəhreyndə yerləşən ABŞ Hərbi Dəniz Qüvvələrinin 5-ci donanmasının bazası, həmçinin Təl-Əviv ətrafı hədəfə alınıb.

**Daha bir SEPAH rəhbəri öldürüldü...**

İranın paytaxtı Tehranda SEPAH-ın Aerokosmik Qüvvələrinin aparıcı şəxslərindən biri hesab olunan Məcid Kaşefi öldürülüb. Məlumatlara görə, Kaşefi şəhərdə avtomobili ilə hərəkətdə olarkən İsrailə məxsus pilotsuz uçuş aparatının zərbəsinə məruz qalıb. Bildirilir ki, hücum nəticəsində avtomobilə birbaşa zərbə endirilib və SEPAH rəsmisi hadisə yerində həlak olub. Qeyd olunur ki, Məcid Kaşefi İranın İslam İnqilabı Keşikçiləri Korpusunun Aerokosmik Qüvvələrində əsas fiqurlardan biri hesab olunurdu və raket proqramı ilə əlaqəli fəaliyyətlərdə iştirak edib. İran tərəfi bununla bağlı rəsmi açıqlama verməyib.



**Hörmüzdə gərginlik davam edir**

Hörmüz boğazında da gərginlik yenidən yüksəlib. SEPAH Hərbi Dəniz Qüvvələrinin komandanı Əlirza Təngsiri ABŞ donanmasının bölgədəki fəaliyyətinə qarşı sərt bəyanatla çıxış edib. Komandir bildirib ki, ABŞ hərbi gəmilərinin və müttəfiqlərinin Hörmüz boğazında tanker karvanlarına müşayiət etməsi cəhdləri İran tərəfindən qəbul edilməyəcək və buna qarşı hərbi tədbirlər görüləcək. Onun sözlərinə görə, belə addımlar İranın raket sistemləri və pilotsuz sualtı aparatları ilə dayandırıla bilər.

Əlirza Təngsiri, həmçinin ABŞ hərbçilərinin müşayiəti ilə bir neft tankerinin artıq Hörmüz boğazından keçdiyi barədə yayılan məlumatların həqiqəti əks etdirmədiyini vurğulayıb. “ABŞ Donanması və müttəfiqlərinin Hörmüz boğazında hər hansı hərəkəti İranın raketləri və pilotsuz sualtı aparatları tərəfindən əngəllənəcək”, - deyə SEPAH komandiri bildirib.

ABŞ Prezidenti Donald Tramp isə özünün “Truth Social” hesabında paylaşım edərək, ABŞ hərbi dəniz qüvvələrinin İranın mina döşəyən 10 hərbi gəmisini birbaşa zərbələrlə məhv etdiyini bəyan edib. “Mənə indicə məlumat verildi ki, biz İranın 10 mina gəmisini vurduq və onlar artıq okeanın dibindədir” - deyə qeyd edən Tramp, Tehranın dəniz yollarını bağlamaq cəhdinin uğursuzluğa düçar olduğunu bildirib.

Pentaqonun və CENTCOM-un (ABŞ Mərkəzi Komandanlığı) verdiyi təfərrüatlara görə, “Epic Fury” (Epik Qəzəb) əməliyyatı çərçivəsində həyata keçirilən bu hava və dəniz hücumları İranın dənizdəki minalama qabiliyyətinə sarsıdıcı zərbə vurub. Tramp, həmçinin əlavə edib ki, əgər İran boğazdakı minaları dərhal təmizləməsə, Tehranı “tarixdə görünməmiş” hərbi nəticələr gözləyir.

**Bütün təkliflər rədd edilib...**

İran atəşkəs danışıqlarına vasitəçilik etmək istəyən ölkələrin bütün təkliflərini rədd edib və diplomatik danışıqları bərpa etmək üçün ABŞ-dan müəyyən zəmanətlər tələb edir. Məlumatı Livanın “Əl Mayadeen” televiziya kanalı yayıb. Kanalın mənbələrinə görə, Tehran Vaşinqtonun gələcəkdə İrana qarşı hücum edilməyəcəyinə zəmanət verməsini, təzminat ödəməsini və İranın nüvə enerjisi obyektlərində tam nüvə yanacaq dövriyyəsini tətbiq etməsinə razılıq verməsini tələb edir.

**Buşəhrə dəyən ziyan...**

İran ABŞ və İsrailin hücumlarından sonra Buşəhr xəstəxanasına dəyən ziyanı açıqlayıb. Buşəhr Tibb Universitetinin rəhbəri Alakərəm Ehlaqinin sözlərinə görə, İranın cənubundakı Buşəhr şəhərindəki bir xəstəxana ABŞ və İsrailin hücumları nəticəsində bina və avadanlıqlara dəyən ziyana görə fəaliyyətini dayandırıb. “Buşəhrə hücumlar və tibb mərkəzinin yaxınlığında bir neçə raket və bombanın partlaması nəticəsində xəstəxanaya ciddi ziyan dəyib. Partlayışlar güclü olub, bəzi binalar və avadanlıqlar zədələnib. Hazırda tibb mərkəzinin fəaliyyətini davam etdirmək mümkün deyil”, - deyə o bildirib.

İran Qızıl Aypara Cəmiyyətinin sözçüsü Mojtab Xaledinin sözlərinə görə, ümumilikdə ABŞ və İsrailin zərbələri nəticəsində İranda 19 mindən çox mülki obyektə ziyan dəyib. Bunlardan 16 mindən çoxu yaşayış binalarıdır.

**P.İSMAYILOV**

# Yaxın Şərqdə müharibə - dünya enerji sınağı ilə üz-üzə qalıb

Fevralın 28-dən başlayan ABŞ-İsrail-İran müharibəsinin ağır fəsadları yalnız bu üç ölkədə hiss olunmur. Müharibənin uzanmasından və arealının genişlənməsindən bütövlükdə dünya təsirlənir.

Xüsusilə də tistehsal-təchizat zəncirinin pozulması, beynəlxalq sularda üzən gəmilərin və logistika məntəqələrinin təhdid altına düşməsi qlobal enerji bazarında təlatümlər yaradıb. Bunun da yan təsirləri kifayət qədər böyükdür. Ciddi narahatlıq doğuran proseslər izlənilir. İqtisadiyyatın drayveri sayılan enerji sektorunda tədarükün azalması, qiymətlərin artması yeni, istehlak bazarını da əhatə edəcək daha genişmiqyaslı qlobal böhranın anonsu kimi dəyərləndirilir.

## Hörmüz boğazında artan gərginlik

Müharibə ilə əlaqədar qlobal enerji bazarında vəziyyətin kəskinləşməsini şərtləndirən ən mühüm amillərdən biri qismində Hörmüz boğazında artan gərginlik çıxış edir. Məlumat üçün bildirək ki, qlobal neft tələbatının təxminən 70 faizi, yəni, gündə 100 milyon bareldən çoxu Malakka boğazı və Hörmüz boğazı kimi strateji dəniz yolları, eləcə də alternativ gəmiçilik marşrutu olan Cənubi Afrikanın Ümid burnu ətrafından nəql olunur. Bu marşrutlar beynəlxalq ticarətdə mühüm rol oynayan qlobal dəniz yolları boyunca dar keçidlər olan dəniz tıxacları kimi tanınır. Bu dəhlizlərdən böyük həcmdə xam neft, neft məhsulları, mayeləşdirilmiş təbii qaz (LNG) və digər mallar keçir. Dəniz marşrutlarında fasilələr təchizat gecikmələrinə və qlobal qiymətlərin artmasına səbəb ola bilər.

Burada Hörmüz boğazının önəmi, bəlkə də, alternativsizliyi ilə xüsusi diqqət çəkir. Ayrı-ayrı dəniz keçidlərində yarana biləcək gərginlik və tıxaclar bəzi alternativ marşrutlar vasitəsilə azaldıla bilsə də, bunu Hörmüz boğazı barəsində demək mümkün deyil. Hörmüz boğazı qlobal enerji sisteminin "dar keçid" nöqtəsi kimi səciyyələndirilir. Uzunluğu təxminən 150 kilometr olan bu boğaz bəzi yerlərdə cəmi bir neçə on kilometr enə malikdir və bu xüsusiyyət onu qlobal enerji nəqliyyatının ən həssas nöqtələrindən birinə çevirir. Fars körfəzini Oman körfəzi və Ərəbistan dənizi ilə birləşdirən Hörmüz boğazı körfəz ölkələrinin enerji resurslarının daşınması üçün ən optimal marşrut sayılır. Ötən ilin birinci yarısında bu boğazdan neft axını gündə orta hesabla 20,9 milyon barel təşkil edib. Bu həcm qlobal neft istehlakının təxminən 20 faizini və dəniz neft ticarətinin təxminən dörddəbirini təşkil edib. Eyni zamanda, dünya üzrə mayeləşdirilmiş təbii qaz təchizatının beşdə biri Hörmüz boğazı vasitəsilə təmin edilir. Hörmüzdən keçən neftin təxminən 80 faizi Asiya bazarlarına göndərilir. Çin burada ən böyük istehlakçılardan biridir. Müharibə tərəfi olan Amerika Birləşmiş Ştatları da Hörmüz vasitəsi ilə daşınan enerji daşıyıcılarının istehlakçıları sırasında yer alır. Bu ölkə ötən ilin birinci yarısında Hörmüz boğazı vasitəsilə Fars körfəzi ölkələrindən gündə orta hesabla 400 min barel xam neft və neft məhsulları idxal edib ki, bu da Amerikanın xam neft və kondensat idxalının 7 faizini təşkil edir. Körfəz regionunda yerləşən Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Qətər, İraq və İran kimi ölkələrin enerji ixracı böyük ölçüdə bu marşrutdan asılıdır. Bu səbəbdən Hörmüz boğazında baş verə biləcək hər hansı gərginlik və ya nəqliyyatın məhdudlaşdırılması qlobal enerji bazarlarına və qiymətlərə dərhal təsir göstərir.

Hazırda da dünya məhz buna şahidlik edir. Deyə bilərik ki, indi Hörmüz boğazı tərəflər arasında strateji bir silaha çevrilib. İran coğrafi yerləşməsinə əsaslanmaqla boğazı tamam bağlamaqla hədələyir. Eyni zamanda, birləşmiş ABŞ-İsrail qüvvələri sarsıdıcı zərbələr vurmaqla İran donanmasına aid çoxlu sayda gəmini sıradan çıxarıb. Lakin bu, nəzarətin bütünlüklə İranın əlindən çıxması anlamında qəbul edilməməlidir. Ərazinin çətin relyefə malik olması Tehrana öz planlarını həyata keçirməsi üçün fürsətlər yaradır. Keçid sularının minalanması da ehtimallar sırasındadır. Belə gərginlik fonunda Hörmüz boğazı faktiki olaraq bağlanıb və bunun da əks təsirləri həm istehsalçı ölkələrdə, həm də Asiyanın və Avropanın istehlak bazarlarında özünü kəskin şəkildə biruzə verir.

## Avropada enerji böhranı dərinləşir

Yaxın Şərqdə baş verən istənilən hərbi əməliyyat qlobal bazarlara güclü təsir göstərir, çünki region neft və qazın hasilatı və ixracında həlledici rol oynayır. Məhz buna görə investorlar və hökumətlər vəziyyətin inkişafını diqqətlə izləyərək enerji daşıyıcılarının tədarükü və dünya iqtisadiyyatının sabitliyi üçün mümkün riskləri qiymətləndirirlər.

Böhranın ilk siqnallarından biri enerji bazarlarının reaksiyası olub. Neftin qiyməti sürətlə artmağa başlayıb, Avropanın təbii qaz bazarında da nəzərəçarpan dəyişkənlik müşahidə olunub. Analitiklərin fikrincə, bu, daha çox mövcud tədarük problemləri ilə deyil, gələcəkdə yarana biləcək çətinliklər fonunda gözləntilərlə əlaqədardır. Bazarlarda logistika zəncirlərinin pozulması riski nəzərə alınır, çünki qlobal tədarükün böyük hissəsi regionun əsas nəqliyyat marşrutlarından keçir.

Hazırda qlobal bazarları neft şoku qorxusu bürüyüb. Avropada səhmlərin satışı məhdudlaşdırılıb. Seulda rekord bir eniş müşahidə edilib, çünki investorlar Yaxın Şərqdə genişlənən müharibənin neft şokuna səbəb olacağı, inflyasiyanın daha da artıracağı və faiz dərəcələrinin aşağı salınmasını gecikdirəcəyi qorxusu ilə çip istehsalçılarının səhmlərini satıblar "Reuters" agentliyinin məlumatına görə, dünyanın müxtəlif dərəcəli aktivlərinin treyderlər tərəfindən sürətli satışı bəzən uzun müddət davam edən yüksək enerji qiymətlərinin nəticələrini anlamağa çalışarkən, xaosa düşmək təhlükəsi yaradır.

Avropanın onsuz da çətin olan gələn qış mövsümü üçün qaz ehtiyatlarını təmin etmək vəzifəsi daha da riskli və bahalı hala gəlib. ABŞ və İsrailin İrana qarşı müharibəsi mayeləşdirilmiş təbii qaz istehsalı və təchizatını pozur, bazar təklifini azaldır, qiymətlərin kəskin şəkildə artmasına səbəb olur.

"Kpler" analitiklərinin fikrincə, Avropadakı alıcılar bu yay anbarları doldurmaq üçün təxminən 700 mayeləşdirilmiş təbii qaz yükünə və ya 67 milyard kubmetrə bərabər miqdarda mayeləşdirilmiş təbii qaza ehtiyac duyurlar ki, bu da ötən illə müqayisədə təxminən 180 yük və ya 17 milyard kubmetr artım deməkdir.

Perspektivlə bağlı proqnozlar ürəkaçan deyil. "Goldman Sachs Group"un analitikləri cari ilin aprel ayı üzrə Avropada təbii qaz qiymətləri ilə bağlı proqnozlarını meqavat-saat üçün 36 avrodan 55 avroya yüksəldiblər.

Yaxın Şərqdəki gərginlik fonunda Avropada təbii qaz qiymətlərində kəskin artım davam edir. Köhnə qitədə mavi yanacağın fyuçers qiymətləri ötən həftənin sonundan etibarən 60 faizdən çox bahalaşıb. Bu, 2023-cü ilin avqustundan bəri qeydə alınan ən böyük artım göstəricisidir, eyni zamanda, 2022-ci ilin enerji böhranından bu vaxtadək müşahidə olunan ən kəskin qiymət dalğalanmasıdır.

Ekspertlərin fikrincə, Avropada təbii qazın qiymətləri Yaxın Şərqdəki gərginliyin qlobal enerji təchizatında ciddi fasilələrə səbəb olacağı ilə bağlı narahatlıqlar, Hörmüz boğazından tankerlərin hərəkətinin dayandırılması və İranın pilotsuz uçuş aparatı (PUA) ilə hücumu nəticəsində hədəfə alınan "QatarEnergy" şirkətinin mayeləşdirilmiş təbii qaz (LNG) qurğusunun bağlanması və buradan ixracının nə qədər müddətə dayandırılacağının təchizata təsiri ilə bağlı qeyri-müəyyənlik fonunda artır. Bu vəziyyət dörd il əvvəl Rusiya-Ukrayna gərginliyinin qlobal enerji ticarətinə təsirindən bəri təbii qaz bazarları üçün ən ciddi şok yaratmaq riskini daşıyır. Əgər Hörmüz boğazından daşınmalar bir ay dayandırılarsa, Avropada təbii qazın qiyməti iki dəfədən çox arta bilər.

Qiymətdəki artım tendensiyasının qlobal miqyasda da davam edəcəyi, təbii qaz anbarlarının doluluq nisbətinin aşağı olması səbəbindən bu vəziyyətin Avropa bazarına təsirinin daha hissedilən olduğu bildirilir. Çünki Avropa qış fəslinin son mərhələlərinə qədəm qoyur və böyük təbii qaz ehtiyatları tükənir ki, bu da qarşıdan gələn saxlama mövsümündə qlobal axınlar üçün rəqabəti gücləndirə bilər. Təchizat təhlükəsizliyinin Avropa üçün yenidən problemə çevrilə biləcəyi də qeyd olunur.

Artıq biznes dairələri həyəcan təbili çalırlar. Fransa Sahibkarlar Təşkilatı - MEDEF İsrail və ABŞ-ın İran üzərində həyata keçirdiyi hava zərbələrinin iqtisadi təsirlərindən narahatlığını ifadə edib. Təşkilatın prezidenti Patrik Martən yerli mətbuata açıqlamasında bu gərginliyin bir çox sahələrə təsir göstərdiyini deyib.

Martən qeyd edib ki, qazın qiyməti 40 faizdən çox, neftin qiyməti isə 20 faizdən çox artıb və bu, şirkətlərin rentabelliyinə birbaşa təsir edə bilər. Patrik Martən əlavə edib ki, Yaxın Şərqdəki böhran, Ukrayna müharibəsi və Çin-ABŞ ticarət gərginlikləri bir araya gəldiyi indiki vəziyyətdə şirkət rəhbərləri ciddi gərginlik yaşayır.




## Atom enerjisinə qayıdış gündəmdə

Belə çətin vəziyyətdə Avropa İttifaqı (Aİ) İran münaqişəsi səbəbindən mümkün təchizat problemlərini həll etmək üçün konkret addımlar atmağa başlayıb. Avropa Komissiyası Brüsseldə keçirilən xüsusi iclasdan sonra Ursula Fon der Lyayenin rəhbərliyi ilə üzv ölkələrlə birlikdə enerji böhranı üzrə qərargahın yaradılacağını açıqlayıb. Məqsəd münaqişə nəticəsində neft və qazın qiymətlərinin sürətlə artmasına adekvat cavab verməkdir. Aİ, həmçinin dəniz və hava nəqliyyatında, xüsusilə Hörmüz boğazı və Qırmızı dəniz ətrafında yaranan riskləri yaxından izləməyi planlaşdırır. Hava yolları, gəmiçilik şirkətləri və milli orqanlarla daha sıx koordinasiyanın həyata keçirilməsi nəzərdə tutulub.

Bu arada "köhnə qitə"də atom enerjisinə qayıdış gündəmə gəlib. "Avropa İttifaqının atom energetikasının payının azaldılması Avropa üçün strateji səhv olub". Bu barədə Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen Fransada keçirilən nüvə energetikası üzrə sammitdə bildirib. "1990-cı ildə Avropada elektrik enerjisinin üçdəbiri atom elektrik stansiyalarında istehsal olunurdu. Hazırda bu göstərici təxminən 15 faizdir. Atom energetikasının payının azaldılması düşünülmüş seçim idi və geriyə baxdıqda demək olar ki, Avropanın etibarlı və əlçatan aşağıkarbonlu enerji mənbəyindən imtina etməsi strateji səhv olub", - deyə o bildirib.

Fon der Lyayenin sözlərinə görə, Avropa Komissiyası kiçik modul reaktorlarla bağlı yeni Avropa strategiyası təklif edir. Bu reaktorların Avropada ən geci 2030-cu illərdə istismara verilməsi nəzərdə tutulur. Aİ rəsmisi bildirib ki, kiçik modul reaktorlar ənənəvi nüvə reaktorları ilə yanaşı "çevik, təhlükəsiz və səmərəli" Avropa enerji sistemində əsas rol oynamalıdır. Bu, həmçinin Aİ-nin fosil yanacaq idxalından asılılığını azaltmalıdır.

Bundan əlavə, Avropa İttifaqı innovativ nüvə texnologiyalarına investisiyaları dəstəkləmək üçün 200 milyon avro məbləğində zəmanət təqdim edəcək.

## Neft-qaz hasilatında kəskin azalma

Hörmüz boğazından keçidin faktiki olaraq dayanması Yaxın Şərq və körfəz ölkələrinin neft istehsalına ciddi təsir göstərib. Neft ixracının mümkün olmamasının anbarların tutumlarına mənfi təsir göstərməsi region ölkələrini hasilatı azaltmağa məcbur edib. Belə ki, İraqın gündəlik neft istehsalının təxminən 2,9 milyon barel azaldığı bildirilir. Bu göstərici ilə İraq regionda neft hasilatını ən kəskin azaldan ölkədir. Səudiyyə Ərəbistanı sutkalıq neft istehsalını 2-2,5 milyon barel, Birləşmiş Ərəb Əmirlikləri 500-800 min barel, Küveyt isə təxminən 500 min barel azaldıb.

Analiktiklərin fikrincə, 12-dən çox ölkəni əhatə edən regional münaqişə və Hörmüz boğazının bağlanması Yaxın Şərqdəki enerji infrastrukturuna mənfi təzyiq göstərməyə davam edir. Bu, eyni zamanda, yeni nəqletmə marşrutlarının müəyyənləşdirilməsi istiqamətində səyləri artırmağa vadar edir.

Səudiyyə Ərəbistanının "Aramco" şirkətinin baş icraçı direktoru Amin Nasserin sözlərinə görə, Hörmüz boğazının uzun müddət bağlı qalması neft bazarları üçün fəlakətli nəticələrə səbəb ola, əhəmiyyətli potensial pozuntu yarada və qlobal iqtisadiyyata ciddi ziyan vura bilər. Münaqişənin başlamasından bu vaxtadək qlobal miqyasda 180 milyon bareldən çox neft tədarükündə fasilələrin yarandığı bildirilir.

Eyni zamanda, "Qatar Energy" şirkəti fors-major elan edib. Bu addım mayeləşdirilmiş təbii qazın və onunla əlaqəli məhsulların istehsalının dayandırılmasından sonra atılıb.

Qətər mayeləşdirilmiş təbii qazın ixracına görə dünyada ikinci yeri tutur (qlobal bazarın təxminən 20 faizi). 2022-ci ildən sonra Avropaya, həmçinin Asiyaya (Çin, Yaponiya, Hindistan) bu məhsulun əsas tədarükçülərindən biridir. Fors-major halı bərpa dövrü ərzində şirkəti müqavilə öhdəliklərindən azad edir.

Qeyd edək ki, martın 2-də şirkət Ras Laffan və Museyid ərazilərindəki obyektlərinə edilən hücumlar səbəbindən LNG və əlaqəli məhsulların istehsalını dayandırdığını elan edib. Martın 3-də isə qaz emalı məhsullarının, o cümlədən karbamid, metanol və polimerlərin istehsalının da dayandırıldığı açıqlanıb.

Həmçinin Bəhreyn Krallığında enerji sektorunun transformasiyasına rəhbərlik edən "Bapco Energies B.S.C" qrupu neft emalı üzrə fors-major elan edib.

Verilən məlumatda bildirilir ki, bu addım qrupun tərkibinə daxil olan şirkətin neft emalı zavodunun bölmələrindən birinin raket hücumuna məruz qalmasından sonra atılıb.

Şirkət qeyd edib ki, qabaqlayıcı planlara uyğun olaraq, yerli bazarın bütün tələbatı tam şəkildə təmin edilib və bu, tədarüklərin fasiləsiz davam etməsinə və daxili tələbin heç bir təsir olmadan qarşılanmasına zəmanət verir.

## Ölkələr enerjiyə qənaət çağırışları edirlər

Dünya enerji bazarında yaranan təlatümlər fonunda ölkələr qənaət rejiminə keçid etməklə bağlı çağırışlar edirlər. Pakistanın Baş naziri Şahbaz Şərif xalqa müraciətində enerjiyə qənaət tədbirlərini açıqlayıb. O bildirib ki, zəruri xidmətlərdə çalışanlar istisna olmaqla, dövlət sektorunda çalışanların 50 faizi məsafədən işləyəcək və banklardan başqa digər dövlət idarələri həftədə dörd gün fəaliyyət göstərəcək. Bu həftənin sonundan etibarən bütün məktəblər iki həftə ərzində bağlanacaq, ali təhsil müəssisələri isə onlayn rejimdə işləməyə davam edəcək.

Baş nazir bildirib ki, rəsmi nəqliyyat vasitələri üçün yanacaq müavinətləri iki ay müddətində yarıya endiriləcək, dövlət nəqliyyat vasitələrinin 60 faizi isə yoldan çıxarılacaq. Federal kabinet də eyni dövrdə maaşlardan imtina edəcək.

Əlavə tədbirlərə parlamentarilərin maaşlarının 25 faiz azaldılması, dövlət xərclərinin minimuma endirilməsi, onlayn iclasların keçirilməsi, nəqliyyat vasitələrinin alınmasının qadağan edilməsi və vacib olmayan xarici səyahətlərin məhdudlaşdırılması daxildir.

Bu arada, Hindistanın Neft və Təbii Qaz Nazirliyi neft emalı zavodlarına yanacaq tədarükündə mövcud geosiyasi pozuntular və mayeləşdirilmiş qaz tədarükündəki məhdudiyyətlər səbəbindən LPG istehsalını artırmağı əmr edib. Nazirlik bildirib ki, ev təsərrüfatlarına daxili mayeləşdirilmiş qaz tədarükü prioritet olaraq təyin edilib, idxal edilən mayeləşdirilmiş qaz isə xəstəxanalar və təhsil müəssisələri kimi vacib sektorlara yönəldiləcək.

Macarıstan mövcud böhrana ən həssas ölkələr sırasında yer alır. Regiondakı gərginliyin enerji bazarlarına və nəticə etibarilə Macarıstanın iqtisadi perspektivlərinə təsir göstərməsi üçün cəmi bir həftəsonu kifayət edib. Analitiklərin fikrincə, Yaxın Şərqdə münaqişə uzanarsa, mərkəzi banklar yüksək faiz dərəcələrini daha uzun müddət saxlamalı olacaq. Bu isə kreditləşmə və investisiya artımı üçün şəraiti pisləşdirəcək.

Macarıstan üçün bu məsələ xüsusi əhəmiyyət daşıyır. Çünki ölkə iqtisadiyyatı investisiyalardan və ixracyönümlü sahələrdən ciddi dərəcədə asılıdır. Yüksək faiz dərəcələri iqtisadi fəallığı zəiflədə və artım tempini azalda bilər.

Mövcud böhran uzanarsa, Macarıstan iqtisadiyyatı üçün nəticələr bir neçə istiqamətdə özünü göstərə bilər: iqtisadi artımın zəifləməsi, inflyasiya artımı, maliyyə bazarlarında qeyri-sabitliyin artması, kreditlərin bahalaşması və əhalinin alıcılıq qabiliyyətinin azalması.

Uzunmüddətli perspektivdə bu proses investisiya mühitinə və ölkənin iqtisadi dinamikasına təsir göstərə bilər. Macarıstan iqtisadiyyatı Avropa və qlobal ticarət sisteminə sıx inteqrasiya olunduğundan xarici şoklar daxili vəziyyətə sürətlə təsir edir. Buna görə də hazırda bu ölkədə də enerji məhsullarından qənaətlə istifadə edilməsi ən aktual çağırışlardan birinə çevrilib.

***Mübariz ABDULLAYEV***

# 10 il sonra dərc olunacaq parlament bəyanatları



Türkiyə xarici işlər və müdafiə nazirlərinin Böyük Millət Məclisinin (TBMM) xüsusi qapalı iclasında çıxışlarının stenoqrafiyası on il sonra yayımlanacaq.

AZƏRTAC xəbər verir ki, Hakan Fidan və Yaşar Güler TBMM-də İranla bağlı yarımsaatlıq məruzələrlə çıxış ediblər, daha sonra isə parlament üzvlərinin, o cümlədən ölkənin cənubu üzərində İranın ballistik raketlərinin ələ keçirilməsi ilə bağlı suallarını cavablandırıblar.

İranla bağlı parlament müzakirəsi ən azı dörd saat davam edib və yekun açıqlama verilməyib.

Media TBMM sədri Numan Kurtulmuşun qapalı iclasdan əvvəl bölgədəki hadisələrin "müvəqqəti fenomen" hesab edilə bilməyəcəyini bildirməsinə xüsusi diqqət yetirib. "Beynəlxalq sistem parçalanma dövrünə qədəm qoyub. İranla bağlı münaqişənin daha genişmiqyaslı fəlakətə çevrilməsinin qarşısını almaq bütün tərəflərin məsuliyyətidir", - deyə N. Kurtulmuş vurğulayıb.

Prezident Rəcəb Tayyib Ərdoğan martın 10-da İran Prezidenti Məsud Pezeşkian ilə telefon danışığında bildirib ki, İranın bölgədəki qardaş ölkələrə hücumları heç kimin maraqlarına uyğun deyil və bitməlidir.

# Zelenski: Bəşəriyyət üçüncü dünya müharibəsinə hazır deyil



Dünya üçüncü dünya müharibəsinə hazır deyil və qlobal münaqişə halında təkcə dronlara və raketlərə deyil, həm də quru əməliyyatlarının aparılması təcrübəsinə arxalanmaq lazımdır.

"Report" xəbər verir ki, bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski irlandiyalı bloqer Keylin Robertsona müsahibəsində deyib.

"Texniki baxımdan Avropa kifayət qədər hazır deyil, yalnız bəzi ölkələr. Bəli, onlar bu yoldadırlar. Almanlar çox sürətlə hərəkət edirlər, lakin bu, bu il bu kimi çağırışlara hazırlaşmaq üçün kifayət deyil. Şimal ölkələri çox texnolojidir. Mən Şimali Avropanı nəzərdə tuturam, onlar hazırdırlar", - deyə o qeyd edib.

Onun fikrincə, ABŞ-nin güclü ordusu var: "Lakin raket və dron müharibəsini canlı qüvvə ilə quru əməliyyatlarının aparılmasından fərqləndirmək vacibdir. Böyük müharibə halında - bu amilləri də nəzərə almaq lazımdır. Burada quru müharibələri təcrübəsi lazımdır".

Zelenski, həmçinin bildirib ki, bu gün Ukraynanın malik olduğu kimi quru əməliyyatları aparmaq təcrübəsi heç bir ölkədə yoxdur:

"Çox sayda insan itkiləri, yeni texnologiyalar, yeni müharibə. Buna görə də hesab edirəm ki, bəşəriyyət dünya müharibəsinə hazır deyil. Çünki dünya müharibəsi - təkcə dronlar və raketlər deyil. Bu, quru qüvvələri ilə, qurudan hücum addımları və qlobal miqyasda itkilərlə olacaq".

# Türkiyə böhranlara hazırdır

İranla bağlı münaqişənin kəskinləşməsi Türkiyənin enerji və ərzaq təhlükəsizliyi, eləcə də kifayət qədər su ehtiyatlarının mövcudluğu ilə bağlı narahatlıqları artırıb.

AZƏRTAC xəbər verir ki, Türkiyə Enerji və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, ölkənin strateji neft ehtiyatları 90 milyon barel təşkil edir ki, bu da iqtisadiyyatın təxminən üçaylıq ehtiyaclarını ödəmək üçün kifayətdir.

Ölkənin ən böyük yeraltı qaz anbarları olan Silivri və Duz gölünün tutumu illik qaz istehlakının təxminən 50-60 milyard kubmetr olduğu bir ölkədə ən azı ikiaylıq daxili tələbatı ödəmək üçün yetərlidir. Mərmərə Ereylisi və Aliağa LNG terminalları, habelə Hatay əyalətinin Dörtyol rayonunda və Saros körfəzində üzən LNG - yenidən qazlaşdırma qurğuları vasitəsilə Türkiyənin gündəlik yenidən qazlaşdırma tutumu 150 milyon kubmetri keçib. Bu, LNG-nin boru kəməri qaz təchizatındakı hər hansı bir fasiləni kompensasiya etməsinə imkan verir.

Ərzaq təhlükəsizliyi baxımından Türkiyənin əhəmiyyətli istehsal potensialı var. Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin məlumatına görə, 2025-ci ildə ümumi kənd təsərrüfatı istehsalı təxminən 121 milyon tona çatacaq. Bunun 68 milyon tonu taxıl, 33 milyon tonu tərəvəz və 19,6 milyon tonu meyvədir.



Türkiyənin su təhlükəsizliyini təmin etmək üçün də əhəmiyyətli investisiyalar qoyulub.

Dövlət Su Təsərrüfatı İşləri İdarəsi 2025-ci ilə qədər Türkiyədə 22 su anbarının, altı yeraltı su anbarının, 70 suvarma qurğusunun və digər layihələrin tikintisini başa çatdırıb. Beləliklə, su ehtiyatlarının saxlanma tutumu 406 milyon kubmetr artıb.

# Gözəl ömür

## Elm işıqdır. Bu işığa maraq göstərənlər işıqlı insanlardır. Dünya bu fəlsəfənin işığında formalaşıb...



Orta məktəbdə oxuyanda ixtisas seçimi ilə bağlı şagirdlərin düşüncələri bəzən mütəhərrik olur, bəzən qətiyyətli. Sabahları üçün hərə bir amilə əsaslanır. Bu seçimə valideyn məsləhəti də təsir göstərir, müəllimlərin tövsiyələri də, bədii əsərlər də. Şagird istəyi bu baxımdan qarşılaşdırmalar dolayından keçir. Bəzən onun istəyini romantik işıq da çəkir. Mehman obrazına sevgiyə görə onlarla gənc hüquqşünaslığı seçməmişdimi? Ali təhsilini yarıda saxlayıb tibb institutuna daxil olan neçə-neçə gənc sonralar tanınmış həkim olduğu da tarixdi...

Adilə Ziyat qızı 1942-ci il avqustun 3-də Zəngilan rayonunun Pirçivan kəndində ziyalı ailəsində anadan olub. Göz açıb ailədə kitablar görmüşdü. Bəlkə də ilk ünsiyyəti bu kitablar olduğunu nə özü xatırlayır, nə də bu haqda bir söz deyən olub...

Sabahlarının ünvanını özü müəyyənləşdirmişdi. Müəllimlərini sevmişdi, müəllimliyi sevmişdi, elmləri sevmişdi. Sonuncu sinifdə oxuyanda materiya haqqında düşüncələrinin suallarına müəllimlərindən, oxuduğu kitablardan cavablar tapmaq istəmişdi. Hərdən sualının anlaşılmazlıq ola bilməsi ehtimalından da çəkinmişdi. Onda belə suallara özü cavab tapmağa qərar vermişdi: dəqiq elmlər üzrə təhsil alacam! Fizikanı seçibmiş...

Adilə Ziyat qızı 1953-cü ilə kimi Zəngilanda Pircivan kənd orta məktəbində oxumuşdu, təhsilini Bakı şəhərində 7 saylı orta məktəbdə davam etdirmişdi, məktəbi gümüş medalla bitirmişdi. Müəllimləri də, valideynləri də bilirdi ki, Adilə seçimini qətiləşdirib. Xeyir-dua vermişdilər. Bu xeyir-dua inama söykənmiş xeyir-dua idi; inanırdılar ki, Adilə seçdiyi yolun dönməz yolçusu olacaq...

Adilə Ziyat qızı Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakultəsinə daxil oldu.

Adilə atası Sosialist Əməyi Qəhrəmanı Ziyat Məmmədovun, əmisi Atlıxan Xanməmmədovun ömür yolunun işığını ömür yolunun yolgöstərəni bilib; atası da, əmisi də alim idi. O da alim olmağı qərara alıbmış. 1964-cü ildə universiteti bitirdikdən sonra təyinatla Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutuna göndərilib. Onda atasına demək istəmişdi ki, mən də sizin kimi elmlə məşğul olacam, orta məktəbdə oxuyanda məni düşündürən sualların cavabını özüm tapmağa çalışacam, ata. Deməmişdi, bir vaxtlar atasından eşitdiyi bir kəlama görə deməmişdi: Hər iş öz vaxtında görüləndə, hər söz öz vaxtında deyiləndə gözəl olur, qızım...

Adilə Abbasova burada 1966-cı ilə kimi baş laborant, sonra mühəndis işlədi. O vaxtlarda onu fizikaya bağlayan səbəblərin cəfasını çəkməyin vaxtı çatdığını da düşünürdü. Bu düşüncələr qətiyyət oldu, arzu oldu, niyyət oldu: elmi fəaliyyəti istiqamətləndirmək! 1966-cı ildə aspiranturaya daxil oldu. İnstitutun göndərişi ilə Ukrayna Elmlər Akademiyasının Yarımkeçiriçilər Fizikası İnstitutunda "Yarımkeçiricilər və dielektriklər fizikası" üzrə elmi-tədqiqat işləri apardı, SSRİ Elmlər Akademiyasının müxbir üzvü H.B. Abdullayevin rəhbərliyi ilə 1970-ci ildə "GaSe monokristallarında rekombinasiya və yapışma proseslərinin tədqiqi" mövzusunda namizədlik dissertasiyasını tamamladı və müdafiə etdi. Yarımkeçiricilər və dielektriklər fizikası ixtisası üzrə fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi aldı. Onda atasının boynuna sarılmaq istəmişdi, illərlə ürəyində saxladığı fikrini - niyə fizika ixtisasını seçdiyini demək keçmişdi könlündən...

Adilə Ziyat qızı Abbasova 1970-ci ildən 1974-cü ilə kimi Fizika İnstitutunda kiçik elmi işçi, sonra baş elmi işçi vəzifəsində işlədi. Alim idi. "Elm nəhayətsizdi. Öyrəndikcə bilmədiklərinin narahatlığını yaşayırsan, daha çox öyrənmək istəyirsən. Öyrənmək nəyəsə, nələrəsə yenilik gətirmək niyyətidi. Yenilik müəyyən mənada elmi kəşf də hesab edilə bilər...", - Adilə xanım belə düşünürdü. Bu düşüncələr onu orta məktəbdən niyyətinə dönmüş bir istəyin mücahidi etməkdəydi - tədqiqatlarının istiqamətini də, miqyasını da təkmilləşdirməyi qərara almışdı. İnstitutun rəhbərliyi onun niyyətini gerçəkləşdirdi - zəmanəti elmi idrakı, zəhmətsevərliyi, elmi düşüncələrinin elmi nəticələri idi. 1974-cü ildə Moskva şəhərinə - Tətbiqi Fizika Elmi-Tədqiqat İnstitutuna ezam olundu.

1974-1982-ci illərdə həmin institutda çalışmış və 1982-ci ildə müsabiqə yolu ilə baş elmi işçi vəzifəsini tutmuşdur. Moskva mühiti onun elm sahəsindəki fəaliyyətini genişləndirməyə daha geniş imkanlar açmışdı. SSRİ-nin bir çox elmi-tədqiqat institutları ilə, o cümlədən M.V. Lomonosov adına Moskva Dövlət Universiteti, Ukrayna EA-nın Yarımkeçiricilər Fizikası İnstitutunun onun təmsil etdiyi elm ocağı ilə - Azərbaycan SSRİ EA Fizika İnstitutu ilə sıx elmi-tədqiqat əlaqəsi vardı. Bu əlaqə çoxtərəfli elmi uğurlar üçün başlıca elmi ünsiyyət idi və fizika-riyaziyyat elmləri namizədi Adilə Abbasova da belə bir ünsiyyətin icraçılarından biri idi...

Moskvada elmi mühit bir qədər məsuliyyətli idi və bu məsuliyyət Adilə Ziyat qızı üçün çətinliklər yaratmırdı; elmi hazırlıq həmişə bütün çətinliklərin fövqündə dayanıb. Adilə Abbasova iki dəfə SSRİ Dövlət Mükafatı laureatı, akademik V.İ.Stafeyevin, Moskva Dövlət Universitetinin professoru, Rusiyanın Əməkdar elm xadimi V.S.Vavilovun və digərlərinin elmi məsləhətləri ilə tədqiqatlarını uğurla davam etdirirdi. Bu müqtədir alimlər onun tədqiqatlarının nəticələrini böyük maraqla təqdir edirdi.

1987-ci ildə doktorluq dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru adını alıb, Tətbiqi Fizika Elmi-Tədqiqat İnstitutunda müsabiqə yolu ilə laboratoriya müdiri seçilib və 1992-ci ilədək bu vəzifədə çalışıb.

O illərdə də ürəyi Vətənlə döyünürdü. Sevincinin, ruhunun beşiyi olan Azərbaycanla - valideynləriylə, həmkarlarıyla əlaqə saxlayırdı. 1990-cı il 20 yanvar faciəsi onun da ruhunu silkələdi, onun da varlığını sarsıtdı. O da bu faciəni törədənləri lənətlədi. Faciənin səhərisi gün Moskvada Azərbaycanın daimi nümayəndəliyinin qarşısında Azərbaycanlı ziyalıların topladığı etiraz mitinqində o da iştirak etmişdi. Adilə xanım böyük tarixi şəxsiyyət Heydər Əliyevin həmin mitinqdə iştirakını və çıxışını, verdiyi bəyanatda faciənin törədilməsinə əmr verənləri də, faciəni törədənləri də qınamasını, öz adından və xalqın adından cəzalandırılmasını tələb etdiyini xatırlayaraq Ulu Öndərin Vətən sevgisini yüksək qiymətləndirir, həmişə Ümummilli Liderin həyata keçirdiyi Azərbaycançılıq siyasətinin önündə getdiyini özünün mənəvi borcu hesab edir.

1992-ci ildə Azərbaycan Respublikasının Ali Sovetinə işə dəvət olunmuş və Aparatın Sosial-mədəni qanunvericilik məsələləri şöbəsinin elm, təhsil və mədəniyyət bölməsinin müdiri,1993-1995-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinin Daimi komissiyalar katibliyinin müdiri, 1995-ci ildən 2020-ci ilədək Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri vəzifələrində işləyib.

Milli Məclisdə çalışdığı illərdə elm, təhsil, səhiyyə, mədəniyyət, qadın və uşaqların sosial müdafiəsi problemlərinin həllinə yönəldilmiş fəaliyyətləri tənzimləyən qanunlar hazırlanmasında, dövlət quruculuğu işində xüsusi əməyi və zəhməti olub. Və bu məqamda yadıma bir deyim düşür: "Haqq əmək itirmir"...

Alimin alimliyi təkcə onun yazdığı əsərlərin sayıyla məhdudlaşmır. Alim onda böyük alim hesab olunur ki, elmi ziyasını cəmiyyətə səxavətlə yaymağı da bacarsın. Cəmiyyət bu ziyadan barına bilsin. Elmdə barınma həm də öyrənmə kimi təzahür edir. Alimin yazdığı əsərlər oxunursa, bu əsərlər öyrənmək istəyənlərə gərək olursa, alim taleyinə şükürlər oxuya bilər. Adilə xanım 1992-ci ildən indiyədək BDU-nun Yarımkeçiricilər fizikası kafedrasının professorudur. Elmi kadrların hazırlanmasında özünün şəxsiyyəti də, elmi idrakının nəticəsi olan əsərləri də fəal iştirak edir. Universitetdə bakalavr və magistr təhsili alanlar üçün "Yarımkeçirici çeviricilər", "Nizamsız sistemlər fizikası", "Yarımkeçirici materiallarn və cihazların fiziki xassələrinin tədqiqi üsulları", "Yarımkeçiricilərdə səth və kontakt hadisələri"ndən mühazirələr oxuyur, magistrlər üçün fənn proqramlarının hazırlanmasında da fəal iştirak edir. Üç elmlər namizədinin elmi rəhbəri olub, bir elmlər doktorunun elmi məsləhətçisi. 150-dən çox elmi əsərin, beş ixtiranın, bir neçə monoqrafiyanın müəllifidir.

Adilə Abbasovanın əsas elmi nailiyyətləri sırasında layvari kristallarda yeni texnologiyanın tətbiqi ilə onlar əsasında fotohəssas quruluşların alınması və ilk dəfə olaraq həmin kristallara və fotohəssas quruluşlara müxtəlif növ ionlaşdırıcı şüaların təsiri öyrənilmiş, foto həssaslığın mexanizmi müəyyən edilmişdir. Bu kristalların əsasında ultrabənövşəyi, görünən və yaxın infraqırmızı oblastda işləyən və müəlliflik şəhadətnamələri ilə təsbit olunmuş radiasiyaya davamlı fotohəssas quruluşlar (fotoqəbuledicilər, həssas fotodiodlar və s.) hazırlanmış və onların fiziki xassələri öyrənilmişdir.

Yüksək elmi-nəzəri təfəkkürə malik olan Adilə Ziyat qızı 1993-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Prezidenti Yanında Ali Atestasiya Komissiyasının Ekspert Şurasının üzvü olmuş, uzun müddət AMEA Radiasiya Problemləri İnstitutunda Dissertasiya Müdafiə Şurasının üzvü olub.

1995-ci ildə Almaniyada, 1997-ci ildə İngiltərədə, 1999-2001-ci illərdə Rusiya, İngiltərə, Türkiyə, Yunanıstan, Almaniya, Fransa və başqa ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda iştirak edib, maraqlı və yaddaqalan elmi məruzələrlə çıxış edib.

1995-ci ildə Azərbaycan qadınlarının nümayəndə heyətinin tərkibində Çində keçirilən IV Ümumdünya "Pekin -95" konfransında, 1996-cı ildə Türkiyədə keçirilən qadın problemlərinə həsr olunmuş "Habitat" beynəlxalq konfransda iştirak edib. Respublika Qadınlar Şurasının üzvü seçilib.

Elmi nailiyyətlərinə görə 1999-cu ildə İngiltərənin Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən "İlin beynəlxalq qadını" elan edilib, haqqında həmin Mərkəzin nəşr etdirdiyi "XX əsrin görkəmli şəxsləri" ensiklopedik kitabına məlumat daxil edilib. 2020-ci ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən "XX əsrin görkəmli şəxsləri" diplomu və gümüş medalına layiq görülüb. 2001-ci ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən "XXI əsrin görkəmli qadını" seçilib. 2021-ci il martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII növbədənkənar qurultayında Veteranlar Şurasının üzvü seçilib.

Professor Adilə Abbasova Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli Sərəncamı ilə 2-ci dərəcəli Dövlət Müşaviri ixtisas dərəcəsinə layiq görülüb, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 iyun tarixli 2264 nömrəli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı, 2020-ci il 23 iyun tarixli 2116 nömrəli Sərəncamı ilə "2-ci dərəcəli Vətənə xidmətə görə" ordeni, 2024-cü il 2 fevral tarixli 4289 nömrəli Sərəncamı ilə Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı, Azərbaycan Respublikası Mili Məclisi Sədrinin 2018-ci il 27 dekabr tarixli 229-V saylı Sərəncamı ilə Azərbaycan Respublikası Milli Məclisinin "Parlament" medalı, Azərbaycan Respublikası Təhsil nazirinin 6 dekabr 2019-cu il tarixli K-1823 nömrəli əmri ilə "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı, bir neçə digər medallarla və çoxlu sayda fəxri fərmanlarla təltif olunub.

Zəngilanın ilk qadın elmlər doktoru olan, YAP-ın veteran üzvü kimi asudə vaxtlarında ictimai tədbirlərdə fəal iştirak edən Adilə Ziyat qızı bu gün elm sahəsində qazandığı zəngin təcrübəni öz tələbələrinə böyük məhəbbətlə, böyük azərbycançılıq qüruru ilə aşılayır. İllər ötsə də ürək həmin ürəkdi - Bakıdakı 7 saylı orta məktəbin şagirdi olanda düşüncələrini tarıma çəkən sullara cavab axtaran şagird Adilə Ziyat qızının ürəyi illər sonra da həmin şövqlə, həmin həvəslə, həmin maraqla döyünməkdədir. Onda bilmək istədikləri vardı, indi öyrətmək istəyi dönməzləşib. Bax, gözəl ömür budur!

***Bayram MƏMMƏDOV,***
*Əməkdar müəllim*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**







## Ramazan ayı 22-ci günün duası

**“Allahumməftəh li fihi əbvabə fəzlik. Və ənzil ələyyə fihi bərəkatik. Və vəffiqni fihi limucibati mərzatik. Və əskinni fihi buhbuhati cənnatik. Ya mücibə də-vətil-muztərrin”.**

**Tərcüməsi:**

**“İlahi, bu gün fəzl qapılarını üzümə aç, bərəkətlərini mənə göndər. Bu gün sənin razılığına bais olan işlərdə məni müvəffəq et, məni behiştin ən yaxşı yerində sakin et. Ey biçarələrin duasını qəbul edən Allah!”**

# Azad torpaqlarda yeni həyat!

## Xocalıya 21, Xocavənddə 20 ailə yola salındı...

Keçmiş məcburi köçkünlərimizin doğma yurdlarına - işğaldan azad edilmiş torpaqlarımıza qayıdışı ilə həmin torpaqlar yenidən canlanır. Ərazi bütövlüyü və suverenliyimizin bərpası müasir tariximizin ən mühüm hadisəsidir. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində torpaqlarımız erməni işğalından azad olundu. 2023-cü ilin sentyabrında isə Qarabağ erməni separatçılarından tam təmizləndi və oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəranda üçrəngli Bayrağımızı ucaltması sonsuz iftixar və qürur idir.

İkinci Qarabağ müharibəsinin acı xatirələri yaddaşlarda hələ də diri olsa da, son dövrlərdə azad edilmiş rayonlarda həyata keçirilən köç prosesi yeni ümidlər və həyatın yenidən canlanması üçün zəmin yaradır. Yüzlərlə ailə işğaldan azad edilən bölgələrə köç edərək həm öz tarixi torpaqlarına qayıdır, həm də burada yeni məskunlaşma layihələrinin reallaşmasına töhfə verilir.



### Tarixə qayıdışın təzahürü...

Ancaq təxminən, 30 ildən sonra Qarabağa qayıdış başladı. Bu, yalnız torpaqların geri alınması deyil, həm də bir millətin gücünün, dirçəlişinin və iradəsinin simvolu idi. 1990-cı illərdə köç edən və vətənini tərk edən insanlar, bu dəfə qayıtdıqları torpaqlarda yeni həyat qurmaq, keçmişin acılarını və travmalarını geridə qoymaq, yeni bir başlanğıc yaratmaq istəyirlər. Artıq onlar yalnız torpaqlarına deyil, həm də öz kimliklərinə, milli birliklərinə qayıdırdılar. 30 il əvvəl yaşadıqları ayrılıq, bu dəfə birləşmə və qurtuluşa çevrildi... Bu, həm də tarixə qayıdışın, gücümüzün təzahürüdür.

Xocalı soyqırımı və Xocavəndin işğalı Azərbaycanın tarixində silinməz izlər buraxıb. Xocalı və Xocavənd sakinləri müharibənin dəhşətini yaşasalar da, onların ruhu həm də gələcək nəsillərə ötürülən bir güc və iradə formasıdır.

### Yaddaşımızda silinməz izlər buraxan günlər

1992-ci ilin fevral ayı Xocalı şəhəri və onun ətraf kəndləri üçün tarixdəki ən qara günlərdən biri oldu. Qarabağda yerləşən bu şəhər erməni silahlı qüvvələri tərəfindən işğal olundu və çoxsaylı dinc sakin faciəvi şəkildə həyatını itirdi. Amma bununla yanaşı, Xocalıdan və Xocavənddən köç edən insanların yola çıxması da həmin illərin ən ağır anlarından biri idi.

Xocavənd hər şeydən əvvəl cəbhə xəttinə yaxın bir bölgə idi. Bu səbəbdən daimi təhdid altında yaşayan əhalinin köç etməsi bir növ qaçılmaz idi. İnsanlar özlərini qorumaq, təhlükəsizliyə nail olmaq üçün evlərini tərk etməyə məcbur oldular. Bu hadisə yalnız fiziki deyil, həm də emosional cəhətdən ağır idi. Doğmalarını, ailələrini və sevdiklərini itirən insanları yola salan bu köç, xalqımızın yaddaşında silinməz izlər buraxdı.



### Bir gündə iki ünvan

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” davam etdirilir. Dünən Xocavənd rayonun Qırmızı Bazar qəsəbəsinə və Xocalı rayonunun Xanabad kəndinə köç karvanı yola salınıb. Bu mərhələdə Xocavəndin Qırmızı Bazar qəsəbəsinə 20 ailə - 81 nəfər, Xocalının Xanabad kəndinə isə 21 ailə - 103 nəfər köçürülüb. Dünənki köç də nəzərə alınmaqla ümumilikdə 1 şəhər, 10 rayonun 40 yaşayış məntəqəsində 7 541 ailə (30 261 nəfər) məskunlaşıb.

Bu mərhələdə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə 20 ailə (81 nəfər), o cümlədən Füzuli rayonundan - 8 ailə (34 nəfər), Bakı şəhərindən - 6 ailə (27 nəfər), Beyləqan rayonundan - 5 ailə (18 nəfər), Ağcabədi rayonundan - 1 ailə (2 nəfər), Xocalı rayonunun Xanabad kəndinə, cəmi - 21 ailə (103 nəfər), o cümlədə Bakı şəhərindən - 8 ailə (45 nəfər), Bərdə rayonundan - 6 ailə (29 nəfər), Ağcabədi rayonundan - 3 ailə (16 nəfər), Oğuz rayonundan - 1 ailə (7 nəfər), Goranboy rayonundan - 1 ailə (3 nəfər), Gəncə şəhərindən - 1 ailə (2 nəfər), İsmayıllı rayonundan - 1 ailə (1 nəfər) köçürülüb.

### Yeni məskunlaşma - iqtisadi canlanmanın başlanğıcı

İşğaldan azad edilmiş digər ərazilərimiz kimi, Xocalı və Xocavənd rayonlarının bərpası və yenidən məskunlaşması da dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu prosesin uğurlu nəticələri həm yerli əhali üçün həyat şəraitinin yaxşılaşdırılması, həm də Azərbaycanın regional inkişaf strategiyasının tərkib hissəsi kimi qiymətləndirilir. Bölgədə həyata keçirilən infrastruktur layihələri - yolların bərpası, su və elektrik şəbəkələrinin yenilənməsi, məktəb və tibb müəssisələrinin açılması həm də uzunmüddətli perspektivdə bölgənin iqtisadi və sosial inkişafını təmin edəcək.

Xocavənd və Xocalıya, həmçinin işğaldan azad olunan digər ərazilərə köç karvanlarının yola salınması keçmiş köçkünlərimiz üçün keçmişi anlamaq və gələcəkdə daha güclü olmaq adına mühüm bir anı təşkil edir. Beləliklə, müharibə illərinin acı xatirələrini unudub, xalqın güclü iradəsi ilə inşa edilən bir gələcəyin başlanğıcını görürük. Bu, yalnız Azərbaycanın deyil, bütün bir millətin qələbəsi, dirçəlişi və Vətənə olan sevgi ilə bağlıdır.

***Yeganə BAYRAMOVA***

# Hər an hazır olan güc!

## Daxili Qoşunlarımız sabitlik və təhlükəsizliyin qoruyucularıdır...

Ölkənin təhlükəsizliyi yalnız sərhədlərin qorunması ilə ölçülmür. Bəzən ən vacib müdafiə xətti, gözə görünməyən, amma hər an hazır olan daxili qüvvələrdə yatır. Bu qüvvələrdən biri Daxili Qoşunlardır. Azərbaycanın qazandığı nailiyyətlərin miqyası davamlı şəkildə genişlənir, hər il yeni uğurlara imza atılır. Təbii ki, bütün bu uğurların və iqtisadi yüksəlişin qazanılmasında ölkədə möhkəm sabitlik və təhlükəsizliyin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Mövcud geosiyasi proseslər bir daha təsdiqləyir ki, sabitliyə əsaslanmayan inkişafın yaşanması praktiki olaraq mümkün deyil.

Bu gün Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 34 il ötür. 1991-ci ilin dekabrında SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakıda yerləşən 5-ci diviziyası buraxılıb. Bununla da heyəti 2500 nəfərdən ibarət olan üç hərbi hissə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyinə verilib. Həmin vaxtdan Azərbaycan Daxili Qoşunlarının Biləcəri qəsəbəsindəki hərbi hissənin əsasında yaradılmasına başlanıb.




Daxili Qoşunların Azərbaycan Daxili İşlər Nazirliyinin müstəqil strukturu kimi yaranması və formalaşması ölkəmizin çox çətin bir dövrünə təsadüf edib. 1992-ci il martın 12-də Daxili Qoşunların Biləcəri, Sumqayıt, Gəncə

### Daxili Qoşunların ilk şəhidləri...

hərbi hissələri erməni işğalçılarına qarşı döyüşlərə başlayıb. Azərbaycanın ərazi bütövlüyü uğrunda Ağdam rayonunun Papravənd, Qalaycılar, Manikli, Baş Güneypəyə, Canyataq, Gülyataq kəndlərində vuruşublar. Döyüşlərdə çavuş Hətəmxan Babayev, leytenant Rafiq İsmayılov, baş leytenant Ruber Səfərəliyev Daxili Qoşunların ilk şəhidləri olublar. Həmin döyüş günü rəmzi olaraq Daxili Qoşunlar Günü kimi müəyyənləşdirilib.

### Birinci Qarabağ müharibəsində qəhrəmanlıq nümunələri

Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə - Birinci Qarabağ müharibəsində Daxili Qoşunların döyüşçüləri də qəhrəmanlıq nümunələri göstərib, şəhidlər veriblər. Döyüş əməliyyatları aparılan müddətdə qoşunların şəxsi heyətindən 680 nəfər şəhid olub, 1177 nəfər yaralanıb, 5 nəfər itkin düşüb. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların 9 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı (8-i ölümündən sonra) fəxri adına layiq görülüb.

Daxili Qoşunların formalaşmasında Ümummilli Liderin misilsiz tarixi xidmətləri olub. Belə ki, 1995-ci il martın 9-da Heydər Əliyevin imzaladığı müvafiq fərmanla Azərbaycan Daxili Qoşunlarının şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyü uğrunda və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşə başladığı ilk gün - martın 12-si Daxili Qoşunlar Günü elan olunub.

Daxili işlər orqanlarının ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunlar ötən illərdə şərəfli yol keçib, ciddi sınaq və çətinliklərdən çıxaraq inkişaf edib. Prezident İlham Əliyev Daxili Qoşunların təkmilləşdirilməsi, peşəkar hazırlığının yüksəldilməsi üçün daim diqqət və qayğı göstərir. Məhz bu diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycanın Daxili Qoşunları döyüş hazırlığına və maddi-texniki bazasına görə MDB məkanında ön sıradadır.

Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, şəxsi heyət həmişə xalqın əmin-amanlığının, ölkədaxili sabitliyin sadiq keşikçisi olaraq, respublikamızın ərazi bütövlüyünün bərpasında layiqincə iştirak edib. Bu, onların cəmiyyətdə nüfuzunu artırır və vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılanır.

### 66 hərbçi şəhidlik zirvəsinə ucalıb

Vətən müharibəsində Daxili Qoşunların hərbçiləri misilsiz qəhrəmanlıq nümunələri göstəriblər. 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən 44 günlük müharibə zamanı Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində şanlı Zəfərin qazanılmasına mühüm töhfələrini veriblər. Torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə Daxili Qoşunların 66 hərbçisi şəhidlik zirvəsinə ucalıb, 346 nəfər isə yaralanıb. Daxili Qoşunların 4 əməkdaşı ən yüksək fəxri ada - Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5032**
**Sifariş: 353**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova